*Azərbaycan Respublikası*
*Maliyyə Nazirliyinin*
*Dövlət Sığorta Nəzarəti Xidmətinin*
*rəisi*

*N.C.Xəlilov*

*«30» aprel 2012-ci il*

*Çartis Azərbaycan Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətin Sədri*

*R.M.Maniyev*

*«05» dekabr 2011–ci il*

# NEFT VƏ QAZ KƏŞFİYYATI VƏ İSTEHSALI SAHƏSİNDƏ MÜLKİ MƏSULİYYƏT SIĞORTASI

# QAYDALARI

Bakı - 2011

MÜNDƏRİCAT


| | |
|---|---|
| **MÜNDƏRİCAT** | **2** |
| **SIĞORTA SİNFİ** | **3** |
| **ÜMUMİ ANLAYIŞLAR** | **3** |
| **ÜMUMİ MÜDDƏALAR** | **4** |
| **Maddə 1. SIĞORTANIN ƏHATƏ ETDİYİ ƏRAZİ** | **4** |
| **Maddə 2. SIĞORTAÇININ HÜQUQ VƏ VƏZİFƏLƏRİ** | **4** |
| **Maddə 3. SIĞORTALININ HÜQUQ VƏ VƏZİFƏLƏRİ** | **5** |
| **Maddə 4. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ SIĞORTALININ VƏZİFƏLƏRİ** | **4** |
| **Maddə 5. SIĞORTA MƏBLƏĞİ** | **6** |
| **Maddə 6. SIĞORTA MÜQAVİLƏSİNİN BAĞLANMASI, ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ, XİTAM VERİLMƏSİ** | **6** |
| **Maddə 7. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERMƏNİN NƏTİCƏLƏRİ** | **8** |
| **Maddə 8. ZƏRƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ** | **8** |
| **Maddə 9. SIĞORTA ÖDƏNİŞİNİN HESABLANMASI QAYDASI** | **8** |
| **Maddə 10. SIĞORTA ÖDƏNİŞİNİN HƏYATA KEÇİRİLMƏSİ QAYDASI VƏ ŞƏRTLƏRİ, SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİ ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR** | **8** |
| **Maddə 11. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİNDƏN İMTİNANIN ƏSASLARI** | **9** |
| **Maddə 12. SUBROQASİYA HÜQUQU** | **10** |
| **Maddə 13. SIĞORTA MÜQAVİLƏSİNİN QAYDALAR ÜZƏRİNDƏ ÜSTÜNLÜYÜ** | **10** |
| **Maddə 14. XÜSUSİ ŞƏRTLƏR** | **10** |
| **Maddə 15. İŞ SİRLƏRİNİN GİZLİ SAXLANILMASI** | **10** |
| **Maddə 16. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI** | **10** |
| **Maddə 17. SANKSİYALARA DAİR MADDƏ** | **10** |
| **ÜMUMİ ŞƏRTLƏR** | |
| **HİSSƏ A - ŞƏRTLƏR** | **12** |
| **HİSSƏ B – İSTİSNALAR VƏ MƏHDUDİYYƏTLƏR** | **22** |
| **XÜSUSİ ŞƏRTLƏR** | |
| **HİSSƏ A – SIĞORTA HƏCMİ** | **24** |
| **HİSSƏ B – İSTİSNALAR VƏ MƏHDUDİYYƏTLƏR** | **27** |
| **XÜSUSİ ŞƏRTLƏR (2010) - PEŞƏKAR SIĞORTA ZƏMANƏTİ** | **34** |
| **NEFT VƏ QAZ KƏŞFİYYAT VƏ İSTEHSAL SAHƏSİNDƏ MÜLKİ MƏSULİYYƏT SIĞORTASI ÜZRƏ TARİF DƏRƏCƏLƏRİNİN HESABLANMASI** | **22** |

**SIĞORTA SİNFİ**

Bu sığorta qaydaları ilə müəyyən olunan sığorta növü ümumi mülki məsuliyyət sığortası sinfinə aiddir.

**ÜMUMİ ANLAYIŞLAR**

**Sığorta müqaviləsi** - sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşmadır.

**Sığortaçı** - sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfidir.

**Sığortalı** - sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfidir.

**Sığortalı** - əmlak mənafeləri sığorta müqaviləsi əsasında sığortalanan şəxsdir.

**Faydalanan şəxs** - sığorta qanunvericiliyinə və ya sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişini almaq hüququ olan şəxsdir. Sığorta müqaviləsində faydalanan şəxs qismində başqa şəxs nəzərdə tutulmamışdırsa, sığortalı və (və ya) **Sığortalı** faydalanan şəxs sayılır.

**Sığorta obyekti** - sığortalının, yaxud **Sığortalının** qanunazidd olmayan hər hansı əmlak mənafeyidir.

**Sığorta predmeti** - sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu fiziki şəxs, əmlak və ya haldır.

**Qismən sığorta** - müqavilədə müəyyən edilmiş sığorta məbləği sığorta dəyərindən az olduğu halda (qismən sığorta halında) sığortaçı zərərin əvəzini sığorta məbləğinin sığorta dəyərinə olan nisbətində ödəyir.

**Azadolma məbləği** - sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsidir. Azadolma məbləği hər bir halda sığorta müqaviləsinə uyğun olaraq müəyyən edilən sığorta ödənişi məbləğinə tətbiq olunur. Sığorta müqavilələrində şərtli və ya şərtsiz azadolma məbləği müəyyən oluna bilər.

- **Şərtli azadolma** - məbləğinin nəzərdə tutulması halında, sığorta hadisəsi nəticəsində dəyən zərərin həcmi həmin məbləğdən çox olduqda zərər məbləğindən azadolma məbləği çıxılmır.
- **Şərtsiz azadolma** - məbləği nəzərdə tutulduqda həmin məbləğ hər bir halda zərər məbləğindən çıxılır.

**Sığorta haqqı** risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləğidir.

**Sığorta məbləği** - Sığorta məbləği sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin son həddidir.

## ÜMUMİ MÜDDƏALAR

Bu Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ-hüquqi aktlara uyğun olaraq hazırlanmışdır.

## 1. SIĞORTANIN ƏHATƏ ETDİYİ ƏRAZİ

Tərəflərin başqa cür razılaşdığı və belə razılaşmanın Sığorta müqaviləsində təsbit olunduğu hallar istisna olmaqla, sığorta Azərbaycan Respublikasının ərazisini əhatə edir.

## TƏRƏFLƏRİN HÜQUQLARI VƏ VƏZİFƏLƏRİ

**2. Sığortaçının hüquq və vəzifələri:**

**2.1.** Risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalıdan sığorta haqqını tələb edir.

**2.2.** Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə sığortaçı onun ödənilməsi üçün ilk hissəsi ilə bağlı sığorta müqaviləsi bağlandığı gündən, digər hissələrlə bağlı isə ödəmə tarixindən 1 aydan gec olmamaq şərti ilə yazılı surətdə 15 günədək müddət müəyyən edə bilər.

**2.3.** Sığortaçı sığortalanmış risklər üzrə müqavilədə müəyyən edilmiş sığorta məbləği həddində öhdəlik daşıyır.

**2.4.** Sığorta məbləğlərini, sığorta riskləri, sığorta risklərindən istisnaları və (və ya) sığorta təminatında məhdudiyyətləri müəyyən edir.

**2.5.** Sığortalıdan riskinin dərəcəsini və yaxud sığorta hadisəsi ilə bağlı şəraiti müəyyən etmək üçün mühüm əhəmiyyət daşıyan hallar və ya sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində bu hallarda baş verən dəyişikliklər barədə bildiyi və ya bilməli olduğu məlumatları verməsini tələb edir;

**2.6.** Bu qaydalarla nəzərdə tutulan şərtlərin sığortalı tərəfindən yerinə yetirilməsini tələb edir;

**2.7.** Sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına sığortalı tərəfindən maneçilik törədilməməsini tələb edir;

**2.8.** Sığortalının sığorta hadisəsi yaranmasına yönəldilən qərəzli hərəkətləri və ya sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayətlər törətməməsini tələb edir;

**2.9.** Sığortalının sığortalanmış əmlakın xilas edilməsi (qorunub saxlanması) və ya ona dəymiş zərərin azaldılması üçün lazımi və mümkün tədbirləri görməsini tələb edir;

**2.10.** Sığorta predmeti və hadisəsi barədə sığortalıdan aydın və düzgün məlumat verməsini tələb edir, sığortalının bildirdiyi məlumatın yanlış və ya yarımçıq olması məlum olarsa:

**2.10.1.** Sığortalı bu hərəkəti qəsdən etmişdirsə, sığortaçı vəziyyəti öyrəndiyi tarixdən etibarən sığorta müqaviləsini ləğv edə bilər və sığorta hadisəsi baş verərsə, ödəniş verməkdən imtina edə bilər.

**2.10.2.** Sığortalı hərəkətinin qəsdən etmədiyi müəyyən olarsa, sığortaçı vəziyyəti öyrəndiyi tarixdən etibarən sığorta müqaviləsini ləğv edə bilər və ya həmçinin sığorta müqaviləsinin şərtlərini dəyişdirə və ya əlavə sığorta haqqı almaqla sığorta müqaviləsini qüvvədə saxlaya bilər.

**2.11.** Bu qaydalarda nəzərdə tutulan şərtlərin sığortalı tərəfindən yerinə yetirilməməsi nəticəsində dəyən zərərin əvəzinin ödənilməsindən imtina edir;

**2.12.** Sığorta hadisələri təsiri nəticəsində sığortalının əmlak mənafelərinə dəyən zərərin əvəzinin tam və ya qismən ödənilməsi miqdarında sığorta ödənişini həyata keçirir.

**2.13.** Sığortaçı sığorta müqaviləsi bağlanarkən sığortalıdan sığorta riskinin müəyyən olunması və sığorta haqqının hesablanması üçün zəruri və ona məlum olan bütün halları və məlumatları tələb edir və əlavə zəruri məlumatların siyahısını tərtib edərək, yazılı müraciət formasında sığortalıya göndərir.

**2.14.** Sığorta hadisəsinin baş verməsi barədə sığortaçı hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində qanunvericiliyə uyğun olaraq, həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir.

**2.15.** Sığortaçı sığorta ödənişini sığorta məbləği həddində həyata keçirir.

**2.16.** Sığortaçı sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda sığorta müqaviləsi ilə müəyyən olunmuş qaydada sığorta ödənişini verir.

**2.17.** Sığorta hadisəsi kimi tanına bilən hadisə və ya hal baş verdiyi anda sığorta marağı mövcud olmadıqda həmin hadisə və ya hal sığorta hadisəsi hesab edilmir və sığortaçı sığorta ödənişi üzrə vəzifələrinin icrasından azad edilir.

**2.18.** Sığortaçı sığortalının aşkar yazılı təkidi ilə seçilən təkrarsığortaçının öz öhdəliklərini icra edə bilmədiyi həddə müvafiq sığorta müqaviləsi üzrə vəzifəsini yerinə yetirməkdən azad edilir.

**2.19.** Sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği sığorta dəyərindən az olduğu halda (qismən sığorta halında) sığortaçı zərərin əvəzini sığorta məbləğinin sığorta dəyərinə olan nisbətində ödəyir.

**2.20.** Sığortalının bu sığorta qaydaları ilə razı olduğunu təsdiq etməsi şərti ilə sığortalıya sığorta müqaviləsi verir.

**2.21.** Sığorta müqaviləsi itdikdə və ya məhv olduqda sığortalı və ya **Sığortalı** onun dublikatını sığortaçıdan şifahi və ya yazılı şəkildə tələb edə bilər. Bu tələbin yazılı şəkildə daxil olduğu tarixdən etibarən 3 iş günü müddətində sığortaçı sığortalını və ya **Sığortalı**ı müqavilədə başqa cür nəzərdə tutulmamışdırsa, öz hesabına müvafiq sığorta müqaviləsinin dublikatı ilə təmin edir.

**2.22.** Sığortaçı sığorta predmeti barəsində sığortalı tərəfindən aydın və düzgün məlumat verilməsini tələb edir. Bu məlumatlarla bağlı sığortalı tərəfindən qəsdən yanlış məlumat verilərsə sığortaçı sığorta predmetinin sığorta müqaviləsində göstərilmiş dəyərini qəbul etməyə bilər.

**2.23.** Sığorta müqaviləsi bağlanarkən müstəqil auditor tərəfindən təsdiqlənmiş illik balansı və fəaliyyətinin illik yekunlarına dair maliyyə nəticələri ilə sığortalının tanış olmasını təmin edir.

**2.24.** Sığortalını sığorta şərtləri ilə, yaxud könüllü sığorta müqaviləsinin əsaslandığı sığorta qaydaları ilə tanış edir.

**2.25.** Sığorta müqaviləsi bağlayarkən sığortaçı sığortalanan predmetə baxış keçirə, fiziki və texniki xüsusiyyətlərini müxtəlif vasitələrlə təyin etməklə, sxem və cizgilər tərtib etməklə, foto və video çəkilişlər aparmaqla onu qiymətləndirə, lazım gəldikdə isə onun həqiqi dəyərini müəyyən etmək məqsədilə sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla müstəqil ekspert təyin edə bilər.

**2.26.** Sığortaçı sığorta müqaviləsi üzrə sığortalanan əmlakı, həmçinin sığorta risklərini bilavasitə özü və ya sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla təyin etdiyi sığorta sahəsində yardımçı fəaliyyət göstərən müvafiq şəxs, yaxud müstəqil ekspert vasitəsilə qiymətləndirə bilər. Bu halda müstəqil ekspertlər və sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər bununla bağlı sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər.

**2.27.** Sığortaçı 6.8-ci bəndində qeyd olunan hallar mövcud olarsa sığorta müqaviləsinə vaxtından əvvəl xitam verir.

**2.28.** Sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda və müqaviləyə xitam verilməsində maraqlı olan sığortaçı digər tərəfi bu barədə xəbərdar edir və ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl) tələbini əsaslandırdığı yazılı bildiriş göndərir.

**2.29.** Sığorta hadisəsinin baş verməsi barədə sığortaçıya məlumat vermiş sığortalı və ya **Sığortalı** şəxs, həmçinin faydalanan şəxs hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına həmin hadisə barədə xəbər verməmişdirsə sığortaçı qeyd olunan orqanları bu hadisə barədə dərhal məlumatlandırır.

**2.30.** Sığortaçı (və ya təyin edilmiş müstəqil ekspert, yaxud sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxs) sığorta hadisəsinin baş verməsi faktını və (və ya) səbəbini, habelə nəticələrini təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədlərin və məlumatların alınması ilə bağlı səlahiyyətli dövlət orqanlarına yazılı sorğunu sığortalıya verərək müvafiq sənədlərin təmin edilməsini tələb edir.

**2.31.** Bu qaydaların 15-ci maddəsində müəyyən edilmiş subroqasiya hüququndan istifadə edir.

**2.32.** Qanunvericiliyə və bu qaydalara uyğun digər hüquq və vəzifələrini həyata keçirir.

## 3. Sığortalının hüquq və vəzifələri:

**3.1.** Bu qaydalarla nəzərdə tutulan şərtlərin sığortaçı tərəfindən yerinə yetirilməsini tələb edir;

**3.2.** Sığorta hadisəsinin təsiri nəticəsində sığortalının əmlak mənafelərinə dəyən zərərin əvəzinin tam və ya qismən ödənilməsi miqdarında sığorta ödənişini tələb edir;

**3.3.** Sığorta müqaviləsində qeyd olunan sığorta haqqını ödəyir;

**3.4.** Sığorta riskləri barədə sığortaçıya məlumat verir;

**3.5.** Riskin dərəcəsini və yaxud sığorta hadisəsi ilə bağlı şəraiti müəyyən etmək üçün mühüm əhəmiyyət daşıyan hallar və ya sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində bu hallarda baş verən dəyişikliklər barədə bildiyi və ya bilməli olduğu məlumatları sığortaçıya bildirir;

**3.6.** Sığorta predmetinin və hadisəsinin araşdırması üçün sığortaçıya müvafiq şəraiti yaradır:

**3.6.1.** Sığortalanan əmlaka baxış keçirmək;

**3.6.2.** Sığortalanan əmlakın olduğu yerləri və yerin yaxınlığındakı binaya (qurğu və ya evin) baxış keçirmək;

**3.6.3.** Sığortalanan əmlakın real dəyərinin müəyyənləşdirilməsi məqsədi ilə keçirilən ekspertizada iştirak etmək.

**3.7.** Sığortalanmış əmlakın xilas edilməsi (qorunub saxlanması) və ya ona dəymiş zərərin azaldılması üçün lazımi və mümkün tədbirləri görür;

**3.8.** Sığorta predmeti və hadisəsi barədə sığortaçıya düzgün və aydın məlumat verir;

**3.9.** Bu qaydalarda nəzərdə tutulan şərtləri yerinə yetirir, əks təqdirdə əmlak mənafelərinə dəyən zərərin əvəzinin sığortaçı tərəfindən tam və ya qismən ödənilməsini tələb etmə hüququnu itirir.

**3.10.** Sığorta müqaviləsi bağlanarkən sığortalı sığorta riskinin müəyyən olunması və sığorta haqqının hesablanması üçün zəruri və ona məlum olan bütün halları və məlumatı sığortaçıya bildirir.

**3.11.** Sığorta müqaviləsinə bu qaydaların 6.9-ci bəndinin tələblərinə əsasən sığortalı tərəfindən vaxtından əvvəl xitam verilə bilər. Bu halda:

**3.11.1.** Sığortalı, sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığortaçıdan həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarının ona qaytarmasını tələb edir, əgər bu tələb sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçıdan sığorta haqlarını bütünlüklə sığortalıya qaytarılmasını tələb edir.

**3.11.2.** Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması bu qaydaların bu qaydaların 10-cu maddəsinin tələblərinə əsasən həyata keçirilir.

**3.12.** Sığorta hadisəsinin baş verməsi barədə hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda, qanunvericiliyə uyğun olaraq, həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verir.

**3.13.** Sığorta məbləğinin azalmış hissəsinə uyğun olaraq, əlavə sığorta haqqı ödənilməklə sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləğini bərpa edilə bilər.

**3.14.** Sığortalı sığorta müqaviləsi bağlandıqdan sonra meydana çıxan və sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən sığorta riskinin artması ilə bağlı bütün hallar barədə sığortaçıya məlumat verir.

**3.15.** Sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda və müqaviləyə xitam verilməsində maraqlı olan sığortalı digər tərəfi bu barədə xəbərdar edir və ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl) tələbini əsaslandırdığı yazılı bildiriş göndərir.

**3.16.** Qanunvericiliyə və bu qaydalara uyğun digər hüquq və vəzifələrini həyata keçirir.

**3.17.** İtki, ziyan və ya zərərin qarşısını alma öhdəliyi

Sığortalı

(a) sığortalanan Əmlakın saz vəziyyətdə saxlanılması və itki, ziyan və ya zərərin qarşısını almaq üçün öz hesabına bütün mümkün ehtiyat tədbirlərinin görülməsini təmin etməlidir.

(b) işçilərin seçməsində və onlara nəzarətdə ehtiyat göstərməlidir.

(c) hər bir hakimiyyət orqanları tərəfindən müəyyən edilmiş və qoyulmuş öhdəlikləri icra etməlidir.

Mülkləri nəzarət etmək üçün Sığortaçının nümayəndəsinin Mülklərə hər zaman daxil olma imkanı olmalıdır.

## 4. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ SIĞORTALININ VƏZİFƏLƏRİ

**4.1.** Sığorta hadisəsinin baş verməsi barədə sığortalı və ya **Sığortalı** şəxs, yaxud faydalanan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda, qanunvericiliyə uyğun olaraq, həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir. Sığorta müqaviləsində məlumat verməyin müddəti və yaxud üsulu göstərilmişdirsə, o, müəyyən olunmuş müddətdə və həmin üsulla həyata keçirilməlidir.

**4.2.** Sığorta hadisəsinin baş verməsi barədə sığortaçıya məlumat vermiş sığortalı və ya **Sığortalı** şəxs, həmçinin faydalanan şəxs bu qaydaların 7.1-ci bəndi ilə nəzərdə tutulmuş səlahiyyətli dövlət orqanlarına həmin hadisə barədə xəbər verməmişdirsə, sığortaçı qeyd olunan orqanları bu hadisə barədə dərhal məlumatlandırmalıdır.

**4.3.** Sığortalı baş verən hadisə barəsində səlahiyyətli dövlət orqanlarına məlumat verməyə və qanunvericiliklə ona aid edilmiş bütün öhdəlikləri yerinə yetirməyə borcludur.

**4.4.** Sığorta hadisəsi zamanı sığortalı mümkün zərərin qarşısını almaq və miqdarını azaltmaq üçün bütün ağlabatan və mümkün tədbirləri görməlidir.

**4.5.** Belə tədbirlər həyata keçirilərkən sığortalı sığortaçıdan aldığı təlimatları yerinə yetirməlidir.

**4.6.** Sığortaçı sığorta hadisəsi və onun nəticələri ilə əlaqədar sığortalının bütün hərəkətləri üzərində nəzarət etmək və sığorta ödənişinin həyata keçirilməsinə təsir edə bilən bütün məsələlər haqqında qərar qəbul etmək imkanına malik olmalıdır.

**4.7.** Sığortalı sığorta hadisəsi nəticəsində zərər çəkmiş sığorta predmetini sığortaçı baxış keçirənə qədər sığorta hadisəsindən sonra düşdüyü vəziyyətdə saxlamağa borcludur.

**4.8.** Zərər görmüş əmlak təmir etdiriləcəkdirsə təmir yeri təmir başlanana qədər sığortaçı ilə razılaşdırılmalıdır.

**4.9.** Sığortalı sığorta hadisəsinə aid bütün sənədləri və məlumatı sığortaçıya təqdim etmək, həmçinin hadisənin digər iştirakçılarının və sığorta hadisəsi ilə bağlı məsələlərə baxan səlahiyyətli dövlət orqanlarının bütün hərəkətləri barədə təxirə salınmadan məlumat vermək öhdəliyi daşıyır.

**4.10.** Sığortalı sığortaçının ilkin razılığı olmadan onun məsuliyyətinin tanınmasına yönəlmiş hər hansı bir hərəkət etməyə, saziş imzalamağa və ya vəd verməyə haqlı deyildir.

**4.11.** Sığorta hadisəsi ilə bağlı bütün rəsmi və qeyri-rəsmi təhqiqatlarda sığortaçı öz hesabına sığortalının maraqlarını təmsil və müdafiə etməyə haqlıdır.

**4.12.** Sığorta hadisəsi faktının mövcudluğunu və onun səbəb olduğu zərərin ölçüsünü sübut etmək sığortalının vəzifəsidir.

**4.13.** Sığorta hadisəsi faktının və şəraitinin, eyni zamanda zərərin miqdarının sübut edilməsi üçün sığortalı malik olduğu və həmçinin qanunvericiliyə və adi təcrübəyə müvafiq olaraq əldə etməli bütün sənədləri sığortaçıya təqdim etməyə borcludur.

## 5. SIĞORTA MƏBLƏĞİ

Sığorta məbləği sığortalanmış risklər üzrə sığortaçının sığorta müqaviləsi ilə müəyyənləşdirilmiş öhdəliyinin son həddidir.

**5.1.** Bu qaydalara əsasən sığorta məbləği sığorta predmetinin sığorta müqaviləsi bağlandığı andakı həqiqi dəyərindən - sığorta dəyərindən çox olduğu halda (ikili və ya çoxqat sığorta halında), həmin müqavilə sığorta məbləğinin sığorta dəyərindən artıq olan hissəsində etibarsızdır.

**5.2.** Sığorta məbləğinin hər bir sığorta predmeti və ya onun hissəsinə münasibətdə ayrı-ayrı risklər üzrə miqdarı sığorta müqaviləsində qeyd olunur.

## 6. SIĞORTA MÜQAVİLƏSİNİN BAĞLANILMASI, ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ, XİTAM VERİLMƏSİ

**6.1.** Sığorta müqaviləsi sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşmadır.

**6.2.** Sığorta müqaviləsi tərəflərin bu qaydalar əsasında yazılı formada tərtib etməsi, qarşılıqlı imzalaması və ya sığortalının bu qaydalar ilə razı olduğunu təsdiq etməsi şərti ilə sığortaçı tərəfindən sığortalıya sığorta müqaviləsinin verilməsi yolu ilə bağlanır.

**6.3.** Sığorta müqaviləsinə ediləcək əlavə və dəyişikliklər qanunvericiliyin tələblərinə uyğun olaraq tərəflərin qarşılıqlı razılaşması yolu ilə həyata keçirilir.

**6.4.** Sığorta müqaviləsi müəyyən müddət üçün bağlanılır.

**6.5.** Sığorta yalnız müqavilənin (şəhadətnamənin) qüvvədə olduğu müddət ərzində baş verən sığorta hadisələrinə təminat verir.

**6.6.** Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, sığorta təminatının müddəti sığorta müqaviləsinin bağlandığı gün saat iyirmi dörddən başlanır və sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığorta müqaviləsinə əsasən həmin müqavilənin qüvvədə olduğu sonuncu gün saat iyirmi dörddə başa çatır.

**6.7.** Azərbaycan Respublikasının qanunvericiliyində əqdlərin etibarsızlığı ilə bağlı ümumi əsaslarla və aşağıdakı hallarda sığorta müqaviləsi bağlandığı andan etibarsız sayılır:

**6.8.** Sığorta müqaviləsi sığortaçının və ya sığortalının adından müqavilə bağlamağa ixtiyarı olmayan şəxslərlə bağlandıqda;

**6.8.1.** sığorta fəaliyyəti ilə məşğul olmaq hüququ olmayan və ya müvafiq sığorta növünü aparmağa icazəsi olmayan şəxs sığortaçı qismində müvafiq sığorta müqaviləsini bağladıqda (bu halda ödənilmiş sığorta haqları tam həcmdə sığortalıya qaytarılır);

**6.8.2.** Sığortalı sığorta müqaviləsi bağlayarkən istənilən şəxsi faydalanan şəxs kimi təyin etmək, habelə sığorta hadisəsi baş verənədək sığortaçının və həmin şəxsin razılığı ilə onu dəyişdirmək hüququna malikdir.

**6.9.** Sığorta müqaviləsinə aşağıdakı hallarda xitam verilir:

**6.9.1.** Müqavilənin qüvvədə olduğu müddət bitdikdə;

**6.9.2.** Sığortaçı sığortalı qarşısında öz öhdəliklərini yerinə yetirdikdə;

**6.9.3.** Sığortalı sığorta haqqını müqavilədə müəyyən edilən qaydada ödəmədikdə;

**6.9.4.** Məhkəmə sığorta müqaviləsinin etibarsız olduğu barədə qərar verdikdə;

**6.9.5.** Sığorta predmeti artıq mövcud olmadıqda;

**6.9.6.** Aşağıdakı hallar istisna olmaqla, sığortalı fiziki şəxs öldükdə və ya sığortalı hüquqi şəxs ləğv olunduqda:

**6.9.6.1.** sığorta müqaviləsini bağlamış sığortalı sığorta müqaviləsi bağlayarkən sığortalanmış əmlakı qəbul edəcək hər hansı şəxsi təyin etmiş olduğu, habelə sığorta hadisəsi baş verənədək sığortaçının razılığı ilə onu dəyişdirmiş olduğu hallarda sığortalı fiziki şəxs vəfat edərsə, onun həmin müqavilə üzrə hüquq və vəzifələri mülki qanunvericiliklə müəyyən olunmuş vərəsəlik qaydasında sığortalanmış əmlakı qəbul edən şəxsə keçir;

**6.9.6.2.** qanunvericilikdə və ya müqavilədə başqa şərtlər müəyyən edilməmişdirsə, sığortalının hüquq və vəzifələri sığorta predmeti olan miras əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə həm onun özünün, həm də sığortaçının müqavilədə rəsmiləşdirilən razılığı ilə keçir;

**6.9.6.3.** başqa şəxsin xeyrinə həyat sığortası müqaviləsi bağlamış sığortalı vəfat etdikdə onun hüquq və vəzifələri xeyrinə sığorta müqaviləsi bağlanmış şəxsə təqdim edildikdən sonra ona özünün yazılı razılığı ilə keçir;

**6.9.6.4.** sığortalı olan hüquqi şəxs sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə yenidən təşkil edildikdə onun həmin müqavilə üzrə hüquq və vəzifələri qanunvericiliyə uyğun olaraq müvafiq hüquq varisinə keçir.

**6.9.7.** Sığorta müqaviləsi üzrə sığortalı olmayan **Sığortalı** vəfat etdikdə sığortalının onun başqası ilə əvəz olunması təklifinə sığortaçı etiraz etdikdə;

**6.9.8.** Sığorta qanunvericiliyində, yaxud sığorta müqaviləsində digər hal nəzərdə tutulmamışdırsa, sığortalanmış əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etdikdə; əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etmədikdə əlavə sığorta haqqı ödənilmədən sığorta müqaviləsi üzrə sığortalı dəyişdirilə bilər;

**6.9.9.** Sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;

**6.9.10.** Sığorta marağı artıq mövcud olmadıqda;

**6.9.11.** Sığortalı sığorta haqqını qanunvericilikdə və sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;

**6.9.12.** Azərbaycan Respublikasının Qanunvericiliyi və bu qaydalarla nəzərdə tutulmuş digər hallarda.

## 7. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERMƏNİN NƏTİCƏLƏRİ

**7.1.** Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını ona qaytarır; əgər bu tələb sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır.

**7.2.** Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərcləri çıxılmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) qaytarır.

**7.3.** Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarına) bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqları) sığortalıya qaytarılmır.

**7.4.** Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqından (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarından) az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması bu qaydaların 7.1-ci və 7.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

**7.5.** Sığorta müqaviləsinə bu qaydalarda və ya qanunvericiliklə müəyyən edilmiş məhkəmə qərarı əsasında xitam verilmiş hesab edildikdə, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını, bu maddənin 7.3-cü və 7.4-cü bəndlərinin tələbləri nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır.

## 8. ZƏRƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

**8.1.** Bir sığorta hadisəsi üzrə dəyən zərərin və (və ya) yaranan itkilərin əvəzinin ödənilməsi üçün iki və ya daha çox sığorta müqaviləsi ilə bir və ya bir neçə sığortaçının öhdəlikləri yarandıqda icbari sığorta müqavilələri üzrə sığorta ödənişləri verilir. Bu zaman könüllü sığorta müqaviləsi bağlamış sığortaçı sığortalı (**Sığortalı** və ya faydalanan şəxs) qarşısındakı öhdəliklərini öz istəyi ilə icbari sığorta müqaviləsi bağlamış sığortaçıdan əvvəl yerinə yetirə bilər.

**8.2.** Sığorta müqaviləsi üzrə sığortalı, **Sığortalı** və ya üçüncü şəxs aşağıdakı hallar istisna olmaqla, zərər dəymiş əmlakı sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə sığortaçıya və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etməlidir:

**8.1.1.** Zərərin qarşısının alınması və ya həcminin azaldılması, sığorta hadisəsinin nəticələrinin aradan qaldırılması, yaxud digər fəsadlara səbəb olmaması, habelə zərər dəymiş əmlakın sonrakı itkiləri üçün təhlükə ehtimalına səbəb ola bilən nəzarətsiz halda qalmaması, başqa şəxslərin hərəkətinə və ya fəaliyyətinə mane olmaması üçün zəruri tədbirlərin görülməsi, o cümlədən bu məqsədlərlə əmlakın hadisə yerindən kənarlaşdırılması zamanı zərər dəymiş əmlakın hadisədən dərhal sonrakı vəziyyətdə saxlanması mümkün olmadıqda;

**8.1.2.** sığortaçı sığorta hadisəsi barədə bu qaydalarla nəzərdə tutulmuş şəkildə məlumatlandırıldıqdan 5 gün müddətində onun nümayəndəsi zərər dəymiş əmlaka baxış keçirmədikdə;

**8.1.3.** digər hallarda zərər dəymiş əmlakın sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə saxlanmamasına sığortaçının yazılı razılığı olduqda.

## 9. SIĞORTA ÖDƏNİŞİNİN HESABLANMASI QAYDASI

**9.1.** Sığortalanmış əmlaka vurulan zərərlərin həcmi müəyyən olunduqdan sonra sığorta ödənişinin hesablanması aşağıdakı üsullarla və ardıcıllıqla həyata keçirilir:

**9.1.1.** Qismən sığorta zamanı - sığorta məbləğinin sığorta dəyərinə olan nisbəti əsasında vurulmuş zərərlərə təminat verilir;

**9.1.2.** Sığorta müqaviləsində azadolma nəzərdə tutulduqda - azadolma məbləği çıxılmaqla zərərlərə təminat verilir;

**9.2.** Sığorta müqaviləsi üzrə sığorta ödənişlərinin ümumi miqdarı sığorta məbləğini aşa bilməz.

## 10. SIĞORTA ÖDƏNİŞİNİN HƏYATA KEÇİRİLMƏSİ QAYDASI VƏ ŞƏRTLƏRİ, SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİ ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR

Sığorta ödənişi sığorta hadisəsi baş verdikdə qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyasıdır.

**10.1.** Sığorta ödənişi aşağıdakılara əsasən həyata keçirilir:

**10.1.1.** sığorta hadisəsi baş verdikdə, sığortalının, **Sığortalının** və ya faydalanan şəxsin sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə sığortaçıya ünvanladığı sığorta tələbi;

**10.1.2.** sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı qanunvericiliyə uyğun olaraq, hər hansı dövlət orqanına məlumat verilməlidirsə, həmin orqanın hadisə barədə təqdim etdiyi müvafiq sənəd;

**10.1.3.** qanunvericilikdə və müvafiq sığorta qaydalarında nəzərdə tutulan, sığorta ödənişinin verilməsi üçün tələb olunan digər sənədlər.

**10.2.** Sığorta hadisəsi nəticəsində dəymiş zərərin miqdarını bu qaydaların 13.1-ci bəndində göstərilən sənədlərin və ekspert rəyinin əsasında sığorta müqaviləsi üzrə sığortalının, **Sığortalının** və ya faydalanan şəxsin, yaxud onların nümayəndəsinin təqdim etdiyi sığorta tələbi əsasında sığortaçı müəyyən edir. Bu zaman sığortaçı dəymiş zərəri müxtəlif üsullarla, o cümlədən zərər dəymiş predmetin və ya hadisə yerinin fiziki və texniki xüsusiyyətlərini müxtəlif vasitələrlə təyin etməklə, sxem və cizgilər tərtib etməklə, foto və video çəkilişlər aparmaqla, bilavasitə özü və ya sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla təyin etdiyi sığorta sahəsində yardımçı fəaliyyət göstərən müvafiq şəxs vasitəsilə qiymətləndirə bilər.

**10.3.** Sığorta hadisəsi nəticəsində dəyən zərərin sığortaçı tərəfindən qiymətləndirilməsi, habelə miqdarı barədə tərəflər arasında razılıq əldə edilmədikdə zərərin miqdarının qiymətləndirilməsi sığorta qanunvericiliyinin tələbləri nəzərə alınmaqla, təyin olunan müstəqil ekspert və ya sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər tərəfindən aparılır və bu zaman sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər.

**10.4.** Sığortaçı sığorta hadisəsi ilə əlaqədar bütün sənədləri aldıqdan sonra 30 təqvim günü ərzində sığorta ödənişini verir və ya yazılı şəkildə əsaslandırmaqla ödənişi verməkdən imtina edir.

**10.5.** Zərərin miqdarı barədə tərəflər arasında razılıq əldə edildikdən sonra sığorta hadisəsi üzrə sığorta ödənişi sığortaçının seçimi əsasında aşağıdakı formalarda həyata keçirilir:

**10.5.1.** zərər məbləğinin pul şəklində sığortalıya (**Sığortalıya**) və ya faydalanan şəxsə ödənilməsi;

**10.5.2.** sığorta hadisəsi nəticəsində dəyən zərərin aradan qaldırılması üçün sığortalıya (**Sığortalıya** və ya faydalanan şəxsə) göstərilən xidmətlərin və ya satılan əşyaların dəyərinin xidmət göstərənə və ya satıcıya ödənilməsi;

**10.5.3.** sığorta müqaviləsində nəzərdə tutularsa, həmin müqavilədə müəyyən edilən şərtlər əsasında sığorta predmeti olan əmlakın dəyişdirilməsi.

**10.6.** Sığorta ödənişinin ödənilməsi zamanı sığortaçı sığorta ödənişi məbləğindən sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq hüququna malikdir.

**10.7.** Sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği həmin müqavilə üzrə verilmiş sığorta ödənişi həcmində azalmış hesab olunur, bu halda sığorta məbləğinin azalmış hissəsinə uyğun olaraq, əlavə sığorta haqqı ödənilməklə sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği bərpa edilə bilər. Sığorta qanunvericiliyində başqa hal nəzərdə tutulmamışdırsa, bu zaman sığorta müqaviləsinə sığortaçı sığorta məbləğinin azalması ilə bağlı dəyişiklik edə bilər.

**10.8.** Əmlakın sığortasında və əmlaka vurulan zərərə görə mülki məsuliyyətin sığortasında sığorta ödənişi sığorta hadisəsinin baş verməsi nəticəsində sığortalıya və ya **Sığortalıya**, habelə zərərçəkən üçüncü şəxsə dəyən real zərərin miqdarından çox ola bilməz.

## 11. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİNDƏN İMTİNANIN ƏSASLARI

**11.1.** Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:

**11.1.1.** sığortaçının hadisənin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar olaraq onun mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda, habelə zərər dəymiş əmlakın ona təqdim edilməsi ilə bağlı bu qaydaların 11.2-ci bəndinə riayət edilmədikdə;

**11.1.2.** qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığortalının, müvafiq hallarda zərərçəkənin sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;

**11.1.3.** müqavilə və ya qanunla hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;

**11.1.4.** sığortalının sığortalanmış əmlaka dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı;

**11.1.5.** sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına sığortalı tərəfindən maneçilik törədilməsi, o cümlədən bu qaydaların 11.2.1-ci bəndində müəyyən edilmiş məqsədlər üçün zəruri tədbirlərin görülməsi halları istisna olmaqla, digər hallarda əmlakın hadisə yerindən kənarlaşdırılmasının sığortaçını hadisənin səbəblərini və ya zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum etməsi;

**11.1.6.** bu qaydaların 14.2-ci bəndi nəzərə alınmaqla, sığorta predmeti, həmçinin **Sığortalı** şəxs və (və ya) sığorta hadisəsi barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması;

**11.1.7.** əmlakın sığortası üzrə sığortalı, **Sığortalı** və ya faydalanan şəxsin zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması; zərərvuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir.

**11.1.8.** baş vermiş hadisənin qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;

**11.1.9.** Sığorta hadisəsinin sığorta haqqı və ya onun hər hansı bir hissəsinin sığorta müqaviləsində nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra, sığortaçının bu barədə yazılı xəbərdarlıqla son ödəmə müddəti müəyyən edilmişdirsə bu müddətin bitməsindən 3 gün sonra baş verməsi halında sığorta haqqı və ya onun müvafiq hissəsi ödənilməmiş olduqda;

**11.1.10.** sığorta qanunvericiliyində və ya sığorta qaydalarında nəzərdə tutulmuş digər hallarda.

**11.2.** Sığorta müqaviləsi bağlanarkən və ya bağlandıqdan sonra sığortalı özünə məlum olan və sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə sığortaçıya məlumat verməmişdirsə.

**11.3.** Sığortalının sığorta qanunvericiliyində və ya bu qaydalarla nəzərdə tutulmuş vəzifələrini yerinə yetirmədiyi hallarda.

**11.4.** Sığorta qanunvericiliyi və bu qaydalarla nəzərdə tutulmuş digər hallarda.

## 12. SUBROQASİYA HÜQUQU

**12.1.** Subroqasiya - Sığorta ödənişinin həyata keçirilməsindən sonra, **Sığortalının** səhhətinə vurulan zərərə görə məsuliyyət daşıyan üçüncü şəxsə qarşı subroqasiya qaydasında tələb irəli sürmək hüququ, həmin ödəniş məbləği həddində Sığortaçıya keçir.

**12.2.** Sığortalı (**Sığortalı**) Sığortaçının subroqasiya hüququnun təmin edilməsi üçün öz imkanları çərçivəsində ona hər cür kömək göstərməli və Sığortaçını tələb irəli sürmək üçün zəruri olan bütün sənədlər, sübut və məlumatlarla təmin etməlidir.

**12.3.** Sığortalının(**Sığortalının**) hər hansı məhkəmədən kənar razılaşma və ya məhkəmə qərarı əsasında zərərə görə məsuliyyət daşıyan şəxslərdən aldığı təminat məbləğləri, ilk növbədə Sığortaçının sığorta müqaviləsi üzrə həyata keçirdiyi sığorta ödənişlərinin əvəzinin ödənilməsinə xərclənəcək.

**12.4.** Sığortaçı ilə Sığortalı arasında başqa cür razılaşdırıldığı və belə razılaşmanın Sığorta müqaviləsində təsbit olunduğu hallar istisna olmaqla, Sığortalı (**Sığortalı**) zərərvuran şəxsə qarşı iddiadan və ya tələbi təmin edən hüquqlardan, yaxud lazımi sənədləri Sığortaçıya verməkdən imtina etdikdə, Sığortaçı sığorta ödənişi verməkdən zərərvuran şəxsdən subroqasiya qaydasında ala biləcəyi məbləğ həcmində azad edilir və ödənilmiş sığorta ödənişinin tam və ya müvafiq hissəsinin qaytarılması hüququnu əldə edir.

## 13. SIĞORTA MÜQAVİLƏSİNİN QAYDALAR ÜZƏRİNDƏ ÜSTÜNLÜYÜ

Bu Qaydalarda nəzərdə tutulmuş istisnalar və məhdudiyyətlər qanunvericiliyə zidd olmadığı hallarda tərəflərin razılığı ilə sığorta təminatına daxil edilə bilər.

## 14. XÜSUSİ ŞƏRTLƏR

**14.1.**Sığorta müqaviləsində qanunvericiliyə, bu qaydalara və bunlarla əlaqədar olan əlavə şərtlərə (klozlara) zidd olmayan xüsusi şərtlər də yazıla bilər.
**14.2.**Sığorta müqaviləsinə əlavə və dəyişikliklər qarşılıqlı razılaşma əsasında yazılı şəkildə rəsmiləşdirilir.
**14.3.**Sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflər Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada məsuliyyət daşıyırlar.
**14.4.**Sığorta predmeti bir və ya bir neçə sığorta müqaviləsi ilə həqiqi dəyərindən artıq məbləğə sığortalandıqda sığorta məbləğinin sığorta dəyərindən artıq olan hissəsində sığorta müqaviləsi etibarsızdır.
**14.5.**Sığortalı ilə sığortaçı arasındakı razılaşmaya görə davamlı olaraq eynicinsli sığorta predmetinin müxtəlif hissələrinin oxşar şərtlərlə ayrı-ayrı dövrlər üzrə sığorta olunması vahid sığorta müqaviləsi tərtib edilməklə bir sığorta müqaviləsi əsasında həyata keçirilə bilər.
**14.6.**Sığortalı bu qaydaların 14.5-ci bəndində göstərilən əmlakın hər bir hissəsi haqqında sığorta müqaviləsində razılaşdırılmış məlumatları vaxtında, belə məlumatların təqdim edilmə vaxtı müqavilədə nəzərdə tutulmadıqda isə həmin məlumatları əldə etdikdən dərhal sonra sığortaçıya çatdırmalıdır. Məlumatlar əldə edildiyi zaman zərərlərin əvəzinin sığortaçı tərəfindən ödənilməyəcəyi məlum olsa belə sığortalı əldə etdiyi məlumatları sığortaçıya çatdırmalıdır.
**14.7.**Sığortalı tələb etdikdə sığortaçı bu qaydaların 14.5-ci bəndində nəzərdə tutulan müqavilənin aid olduğu əmlakın ayrı-ayrı hissələri üzrə sığorta müqaviləsi verməlidir.

## 15. İŞ SİRLƏRİNİN GİZLİ SAXLANILMASI

Sığortaçı, sığortalıya aid öyrənəcəyi iş sirlərini gizli saxlamamaqdan dəyən ziyan və zərərlərə görə məsuliyyət daşıyır.

## 16. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI

**16.1.**Sığorta müqaviləsi üzrə ortaya çıxan mübahisələr tərəflərin danışıqlar yolu ilə həll edilir.
**16.2.**Razılığa gəlinmədiyi təqdirdə mübahisələrə Azərbaycan Respublikasının mövcud qanunvericiliyində müəyyən olunmuş qaydada aidiyyatı üzrə məhkəmədə baxılır.
**16.3.**Sığorta müqaviləsindən irəli gələn bütün tələblər Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyənləşdirilmiş müddətdə həll edilir.

## 17. SANKSIYALARA DAIR MADDƏ

Şirkət bu müqavilənin əhatə etdiyi hər hansı bölmələrinə əsasən məsuliyyət üçün heç bir ödəniş etməyə və ya onun hər hansı bir genişlənməsi çərçivəsində hər hansı ödəniş həyata keçirməyə borclu deyil: bu müqaviləni və/və ya sığortaçı, onun ana şirkəti və yaxud onun əsas nəzarət qurumunu tənzimləyən hər hansı qanun və/ və ya normativ aktla embarqo qoyulan və ya sığortalıya və ya bu müqavilə əsasında hər hansı başqa faydalanan şəxsə sığortalanma təmin etməyi və ya digər iqtisadi müavinət təklif etməyi sığortaçıya qadağan etməklə nəticələnən digər iqtisadi sanksiya forması tətbiq edilən hər hansı ölkə (ölkələr)də yaranan və yaxud sığortalı və ya bu müqavilənin hər hansı faydalanan şəxsi vətəndaşı və ya qurumu olduğu dövlətdən irəli gələn hər hansı iddia çərçivəsində itki üçün.

## ÜMUMİ ŞƏRTLƏR

### HİSSƏ A - ŞƏRTLƏR

1. ANLAYIŞLAR VƏ TƏFSİR
2. SIĞORTA TƏMİNATI VƏ TƏZMİNAT
3. SIĞORTAÇININ MƏSULİYYƏTİ
4. ADI ÇƏKİLƏN SIĞORTALI TƏRƏFİNDƏN TƏMSİL OLUNMA
5. HADİSƏ HAQQINDA BİLDİRİŞ
6. MƏLUMAT VERMƏ ÖHDƏLİYİ
7. İDDİALAR
8. MÜDAFİƏ ÖHDƏLİYİNİN OLMAMASI; YARDIM VƏ ƏMƏKDAŞLIQ
9. QƏRAR VƏ APELYASİYA
10. SUBROQASİYA, XİLASETMƏ VƏ TƏZMİNATLAR
11. İCAZƏLƏR VƏ İMTİYAZ
12. MƏLUM İTKİLƏR
13. FAKTLARIN TƏHRİF EDİLMƏSİ VƏ MƏLUMAT VERMƏMƏ
14. MÜSADİRƏ VƏ SAXTA İDDİALAR
15. YOXLAMA VƏ AUDİT
16. VALYUTA VƏ MÜBADİLƏ
17. OBYEKTLƏRİN YENİDƏN QURULMASI VƏ DƏYİŞDİRİLMƏSİ
18. BİRGƏ MÜƏSSİSƏLƏR VƏ TƏRƏFLƏRİN MARAQLARI
19. DÜZƏLİŞ VƏ İMTİNA
20. XİTAM VERMƏ
21. SƏHVLƏR VƏ NƏZƏRDƏN QAÇIRMALAR
22. MÜDDƏALARIN ETİBARSIZLIĞI
23. ÜÇÜNCÜ TƏRƏFİN HÜQUQLARININ MƏHDUDLAŞDIRILMASI
24. QANUN VƏ YURİSDİKSİYA
25. TAM MÜQAVİLƏ

### HİSSƏ B – İSTİSNALAR VƏ MƏHDUDİYYƏTLƏR

26. QEYRİ-QANUNİ ÖDƏNİŞLƏR
27. RADİOAKTİV ÇİRKLƏNMƏ VƏ SİLAHLAR
28. KİBER

## HİSSƏ A – ŞƏRTLƏR

### 1. ANLAYIŞLAR VƏ TƏFSİR

1.1 Aşağıdakı terminlər aşağıda müəyyən edilmiş mənalara malikdir:

**A Terror aktı**

hər hansı şəxsin və ya şəxslərdən ibarət qrupun təkbaşına və ya hər hansı təşkilat və ya dövlət adından və ya onlarla birlikdə siyasi, dini, ideoloji və ya buna bənzər məqsədlər, o cümlədən hər hansı hökumətə təsir etmək və / və ya ictimaiyyəti, və ya ictimaiyyətin hər hansı hissəsini qorxu altına salmaq məqsədilə törədilmiş hər hansı hərəkətini, və ya hərəkətlərini, o cümlədən qüvvə və ya zorakılıqdan istifadəni ifadə edir.

**B Hava gəmisi**

Quruda fəaliyyət göstərən təyyarə, hidro-təyyarə, təyyarə amfibiya, və ya vertolyotu ifadə edir və buraya istismar, naviqasiya və çox vaxt qoşulmuş radio avadanlıq, o cümlədən digər bənzər hissələrlə əvəz edilməzsə gəmidən müvəqqəti ayrılmış hissələr, və xüsusilə həmin gəmi üçün nəzərdə tutulan və adi halda həmin gəmidə daşınan alətlər və təmir avadanlığı daxildir.

**C Avtomobil**

Yerüstü motorlu nəqliyyat vasitəsini, qoşqu və ya yarım qoşqunu ifadə edir.

**D Şirkətin sənədlər toplusu**

Şirkətin səhm paketi və investisiyaları ilə əlaqədar sahibkarlıq məlumatlarının sənədləşdirilməsi üçün Şirkət daxilində saxlanılan Şirkətin sənədlər toplusunu (və ya əvəzedici) ifadə edir.

**E Müdafiə xərcləri**

Hər hansı və ya faktiki gözlənilən iddianın müdafiəsi ilə əlaqədar **Sığortalı** tərəfindən və ya onun adından çəkilmiş hüquqi xərcləri və digər məsrəfləri, o cümlədən vəkil haqları və ödənişlərini, məhkəmə proseslərinə xərcləri, mülkiyyətin üzərinə həbs qoyulması ilə əlaqədar və ya apelyasiya xərclərini qarşılamaq öhdəliklərini, mühakimədən əvvəl və sonrakı faizi, ekpertlər və araşdırma, tənzimləmə, qiymətləndirmə və hesablaşma üçün xərcləri ifadə edir, buraya **Sığortalının** işçilərinin əmək haqları, məvacibləri və müavinətləri və **Sığortalının** daxili inzibati xərcləri daxil deyil.

**F İşçi**

Aşağıdakıları ifadə edir və əhatə edir:

Sözü gedən təşkilatın işgüzar fəaliyyəti ilə əlaqədar həmin təşkilat üçün işləyən

(a) müstəqil podratçılar istisna olmaqla, sözü gedən təşkilatla xidmət və ya təcrübə müqaviləsi əsasında hər hansı şəxs;

(b) hər hansı iş ustası və ya iş üçün sub-podratçı, və ya onlar tərəfindən təchiz edilmiş və ya işə götürülmüş şəxs;

(c) sözü gedən təşkilat tərəfindən işə götürülmüş və ya müvəqqəti təyin edilmiş hər hansı şxəs; və ya

(d) iş təcrübəsi gənclərin təlimi və ya buna bənzər sistem əsasında sözü gedən təşkilat tərəfindən cəlb edilmiş hər hansı şəxS;

**G Ümumi şərtlər**

Vaxtaşırı olaraq Sığortaçı tərəfindən dəyişdirilə bilən Ümumi Şərtləri (2010) ifadə edir.

**H Başlanğıc tarixi**

Hər hansı **Sığortalının** Sığorta Müddətinin başlanmasından sonra Sığortalı olduğu hallar istisna olmaqla, Sığorta Müddətinin başlanğıc tarixini ifadə edir, həmin istisna halda Başlanğıc Tarixi həmin **Sığortalının** Sığortalı olduğu tarixi ifadə edir.

**I Sığortalı**

Aşağıdakılar ifadə edir və əhatə edir:

(a) **Sığortalı** və, **Sığortalı** şirkət və ya Birgə Müəssisə olarsa, **Sığortalı** kimi təyin edilmiş şirkət və ya Birgə Müəssisə və onların yalnız həmin məsuliyyətlə əlaqədar olan hər tərəfdaşı və ya üzvü;

(b) Sığorta Müddəti ərzində **Sığortalının** maliyyə bəyanatlarının Sığortaçıya təqdim edilmə tarixində həmin Sığorta Müddəti üçün sığorta haqqını qiymətləndirməzdən əvvəl hesabları (i) Amerika Birləşmiş Ştatlarının ümumi qəbul

edilmiş mühasibat uçotu prinsiplərinə uyğun olaraq **Sığortalının** maliyyə bəyanatlarında yeni təsbit edilmiş; və ya (ii) belə təsbit edilmə üçün münasib olan (və ya Birləşmiş Ştatlar tətbiq edilən mühasibat uçotu prinsiplərini ümumi qəbul edərsə, Birləşmiş Ştatlardan olmayan adı çəkilən **Sığortalı** ilə bağlı təsbit edilmiş və ya təsbit edilmə üçün münasib olan; **Sığortalının** hər hansı törəmə şirkəti və ya filialı.

(c) Sığorta Müqaviləsində əlavə **Sığortalı** kimi qeyd edilən hər hansı təşkilat;

(d) Şirkətin Sənədlər Toplusunda Shell Group-nun tam birləşmiş təşkilatı kimi göstərilən və **Sığortalı ilə** eyni yurisdiksiyada fəaliyyət göstərən, **Sığortalının** hər hansı törəmə şirkəti, filialı və ya onunla ittifaqda olan şirkət;

(e) bu anlayışın (a), (b), (c), (d) və ya (h) alt-bəndlərində hər hansı şəxs və ya təşkilatın hər hansı indiki və ya keçmiş məmuru, direktoru, səhmdarı və ya İşçisi, yalnız qeyd edilən vəzifələri həcmində fəaliyyət göstərən;

(f) bu anlayışın (a), (b), (c), (d) və ya (h) alt bəndləri daxilində hər hansı şəxs və ya təşkilatın hər yazılı saziş əsasında Sığorta müqaviləsi ilə yol verilən sığortanı təmin etməli olduğu hansı şəxs, təşkilat, müvəkkil və ya mülkiyyət, yalnız həmin öhdəlik həcmində və həmin şəxs və ya təşkilat tərəfindən və ya adından və ya həmin şəxs və ya təşkilata məxsus olan və ya onlar tərəfindən istifadə edilən sahələrdə əməliyyatlarla əlaqədar olaraq (kommersiya sığorta əməliyyatlarından başqa);

(g) bu anlayışın (a), (b), (c), (d) və ya (h) alt bəndləri daxilində hər hansı şəxs və ya təşkilata məxsus olan və ya həmin şəxs və ya təşkilat adından, onun istifadəsi üçün hüquqi məsuliyyət daşıyan hər hansı şəxs və ya təşkilat tərəfindən istifadə üçün icarəyə götürülmüş hər hansı Avtomobillə əlaqədar, bu şərtlə ki, Avtomobildən faktiki istifadə həmin şəxs və ya təşkilatın icazəsi ilə həyata keçirilir;

(h) bu anlayışın (a), (b), (c), (d) və ya (h) alt bəndləri daxilində hər hansı təşkilatın marağı olan hər hansı Birgə Müəssisə, yalnız həmin təşkilatın Sığorta Müqaviləsi ilə yol verildiyi kimi Birgə Müəssisə üçün sığortanı təmin etməli olduğu həcmdə; və

(i) 17-ci bəndə uyğun olaraq Sığorta Müddətində **Sığortalı** tərəfindən alınmış və ya yaradılmış, və ya onunla birləşmiş hər hansı təşkilat.

**J Sığortaçı**

Sığorta müqaviləsində sığortaçı kimi adı çəkilən təşkilatı ifadə edir.

**K Birgə Müəssisə**

Hər hansı birgə müəssisə, müştərək müəssisə, birgə icarə, birgə fəaliyyətdə olan saziş və ya əməkdaşlığı ifadə edir, onlar heç bir halda onlarda marağı olan **Sığortalı ilə** birləşməmiş və ya onun üçün məhdud məsuliyyəti təmin etmir.

**L Məsuliyyət limiti**

Sığorta müqaviləsində müəyyən edilmiş məsuliyyət limitlərini ifadə edir.

**M Sığorta müqaviləsində adı çəkilən Sığortalı**

Sığorta Müqaviləsində belə qeyd olunan təşkilat və ya təşkilatları ifadə edir.

**N Hadisə**

Hər hansı tətbiq edilən Xüsusi Şərtlərdə müəyyən edilmiş hər hansı Hadisəni ifadə edir. Eyni və ya əlaqədar hadisələr, vəziyyətlər, şərait, sövdələşmələr, faktlar və ya səbəblərdən irəli gələn və ya birbaşa və ya dolayı yolla, yaxından və ya uzaqdan həmin vəziyyətlərlə əlaqədar olan bütün Hadisələr bir Hadisə hesab edilir.

**O Sığorta müddəti**

Sığorta müqaviləsində belə müəyyən edilmiş müddəti ifadə edir, aşağıdakılar istisna edilir:

(a) belə təyin edilmiş müddətdən sonra şəxs Sığortalı olarsa və ya indossamentlə əlavə sığorta həcmi əlavə olunduqda, Sığorta Müddəti həmin şəxsin Sığorta Müqaviləsinə əsasən Sığortalı olduğu və ya həmin indossamentin qüvvəyə mindiyi tarixdən və ya **Sığortalı** və ya Sığortaçı arasında yazılı formada razılaşdırılan hər hansı digər tarixdən başlayır; və

(c) Belə təyin edilmiş müddətin başa çatmasından əvvəl Sığorta Müqaviləsinə onun şərtlərinə uyğun xitam verilərsə, Sığorta Müddəti həmin xitam vermənin qüvvəyə mindiyi tarixdə başa çatır

**P Şəxsi xəsarət**

Şəxsin bədəninə dəyən fiziki xəsarəti o cümlədən istənilən vaxt bundan irəli gələn ölüm, əqli xəsarət, psixi əzab, şok, xəstəlik, əlillik, səhvən həbs edilmə, həbsxanaya salınma, səhvən əmlakdan məhrum edilmə, saxlanılma, cinayət qəsdilə ittiham, ayrıseçkilik, alçaltma, və şəxsiyyətə böhtan, şər atma, və ya diffamasiya və ya gizlilik hüquqlarının qəsb edilməsini ifadə edir.

**Q Sığorta müqaviləsi**

Sığorta Müqaviləsi Cədvəli ilə təsdiq edildiyi kimi bu Ümumi Şərtlərin şamil edildiyi sığorta müqaviləsini ifadə edir (bu Ümumi Şərtlərin və hər hansı tətbiq olunan Xüsusi Şərtlərin daxil olduğu və onları özündə birləşdirən).

**R Sığorta Müqaviləsi Cədvəli**

Sığorta Müqaviləsini təsdiqləyən cədvəli ifadə edir.

**S Məhsullar**

**Sığortalı** və ya onun adından ticarətlə məşğul olan digərləri tərəfindən istehsal edilən, satılan, sınaqdan keçirilən, daşınan və ya paylanan malları və ya məhsulları və ya **Sığortalı** tərəfindən digərləri üçün yerinə yetirilən tamamlanmış əməliyyatlara aid olan alətlər, quraşdırılmamış avadanlıqlar, və ya tərk edilmiş və ya istifadə olunmamış materialları ifadə edir.

**T Saxlanılma**

Sığorta Müqaviləsində göstərilən avtomatik sığortalanan saxlanılmanı ifadə edir.

**U Xüsusi şərtlər**

Bu Sığorta Müqaviləsinin tabe olduğu hər hansı Xüsusi Şərtləri (Sığortaçı tərəfindən vaxtaşırı dəyişdirilə bilən) ifadə edir.

**V Əsası təşkil edən məbləğ**

Hər hansı digər sığorta müqaviləsi və ya qüvvədə olan saxlanılma ilə sığortalanmış itkinin böyük hissəsini ifadə edir.

**W ABŞ dolları**

Amerika Birləşmiş Ştatları dollarını ifadə edir.

**X Gəmi**

İstənilən növ hər hansı gəmini, o cümlədən məhdudiyyət olmadan yük gəmiləri, sərnişin gəmiləri, nəqliyyat üçün istifadə edilən digər gəmilər, yedək qayıqları və barjaları, boru kəmərləri, platformalar, digər qurğuların tikintisi üçün istifadə edilən gəmiləri, saxlama gəmilərini, tankerləri, təlim gəmilərini, qazma qurğularını və barjaları (o cümlədən məhdudiyyət olmadan sualtı qazma qurğuları və barjalar, yarım sualtı qazma qurğuları və barjalar, özü qalxan qazma qurğuları və barjalar) və istənilən xüsusiyyət və növdən olan, özü hərəkət edən və ya etməyən bütün digər gəmiləri ifadə edir. Gəmi ifadəsinə qazma və ya əməliyyatların həyata keçirilməsi üçün qurulmuş dəniz neft və ya qaz platforması və ya üzən məhsul saxlama və boşaltma qurğuları və ya üzən saxlama qurğuları və buna bənzər qurğular daxil deyil.

**Y Virtual Xəzinədar**

Şirkətin Mübadilə məzənnələrini dərc edən Xəzinə tətbiqini ifadə edir.

**Z Hüquqi qüvvədən məhrum etmə**

13.1 bəndində müəyyən edilmiş mənanı ifadə edir.

1.2 Sığorta Müqaviləsində və bu Ümumi Şərtlərdə və hər hansı Xüsusi Şərtlərdə:

(a) Baş hərflə yazılmış terminlər Sığorta Müqaviləsində və ya bu Ümumi Şərtlərin 1-ci maddəsində və ya Xüsusi Şərtlərdə müəyyən edilmiş mənaları ifadə edir;

(b) Sığorta Müqaviləsi, Ümumi Şərtlər və Xüsusi Şərtlərdə bəndlər, anlayışlar və ya istisnalara istinadlar başqa formada nəzərdə tutulmadığı halda həmin sənəd daxilində olan maddə, anlayış və ya istisnaya istinadlardır;

(c) bəndlərin başlıqları onların təfsirinə təsir etmir;

(d) şəxsləri ifadə edən sözlər şəxslərdən ibarət korporativ və qeyri-korporativ qurumları əhatə edir;

(e) Qanun və ya digər normativ akta (buraya istənilən yurisdiksiyada istənilən qanunvericilik daxildir) hər hansı istinad aşağıdakılara istinadı əhatə edir:

(i) həmin normativ akta düzəlişlər, əlavələr edilməklə, yenidən hüquqi qüvvəyə minməklə (dəyişikliklərlə və ya dəyişikliklərsiz) və ya hər hansı digər normativ aktla və ya onun əsasında tətbiq edilməklə (Sığorta Müqaviləsinin icrasından əvvəl və ya sonra);

(ii) həmin normativ aktın hüquqi qüvvə verdiyi hər hansı normativ akt (dəyişikliklərlə və ya dəyişikliklərsiz); və

(iii) həmin normativ akt əsasında tərtib edilmiş hər hansı tabe qanubvericilik (Sığorta Müqaviləsinin icrasından əvvəl və ya sonra), təkrar qüvvəyə minməklə, düzəlişlər, əlavələr edilməklə, və ya (i) alt bəndində göstərildiyi kimi və ya (ii) alt bəndində göstərildiyi kimi tətbiq edilməklə;

(f) düzgün ünvanlanmış elektron və faks yazışmaları və elektron saxlanılan sənədlərə yazılı yazışmalar kimi yanaşılacaq.

1.3 Bu Ümumi Şərtlərin hər hansı müddəası Xüsusi Şərtlərin hər hansı müddəası ilə uyğun olmazsa, Xüsusi Şərtlərin müddəası üstünlük təşkil edəcək.

1.4 Ümumi Şərtlərdə və ya Xüsusi Şərtlərdə məsuliyyətlərin istisna edilməsindən belə bir nəticə çıxarılmamalıdır ki, Sığorta Müqaviləsi həmin məsuliyyətlər və ya buna bənzər məsuliyyətləri başqa yolla əhatə edəcək.

1.5 Sığorta Müqaviləsi tərcümə olunarsa, tərcümə nəticəsində təfsirdə hər hansı uyğunsuzluq olduqda Sığorta Müqaviləsinin ingilis dili variantı üstünlük təşkil edəcək.

## 2. SIĞORTA TƏMİNATI VƏ TƏZMİNAT

2.1 Ödənilmiş sığorta haqqının müqabilində və Sığorta müqaviləsinin bütün şərtləri, müddəaları, məhdudiyyətləri, sığorta sazişləri, istisnaları və indossamentlərinə əsasən Sığortaçı **Sığortalı**ı Xüsusi Şərtlərdə göstərildiyi kimi sığortalamağa razılaşır, bu şərtlə ki:

(a) müvafiq Hadisə haqqında bildiriş **Sığortalı** tərəfindən Sığorta Müddəti ərzində bu Ümumi Şərtlərin 5-ci bəndinə uyğun olaraq, və ya Xüsusi Şərtlərdə hər hansı artırılmış məlumat vermə müddəti müddəalarının şərtlərinə əsasən verilir; və

(b) təzminat Hadisə baş verdiyi vaxt Shell-in hər hansı korporativ **Sığortalı**da səhm faizi həcmində tətbiq edilir (başqa formada yazılı razılaşdırılmadığı halda).

2.2 Sığortaçı yalnız aşağıdakı itkilər üçün məsuliyyət daşıyır:

(a) Əsası təşkil edən məbləğlərdən artıq olan; və

(b) Məsuliyyət limiti daxilində. Sığorta Müqaviləsi ilə əhatə edilən Müdafiə Xərcləri Məsuliyyət Limitlərinə daxildir və onlara əlavə deyil.

Hər hansı Hadisə üçün Sığorta Müqaviləsi əsasında məsuliyyət yalnız itki bu 2.2 bəndinin parametrləri daxilində olduğu səviyyədə tətbiq edilir.

(c) 2.3 Sığorta Müqaviləsində alt-limitlər 100% (yüz faiz) əsasında ifadə edilir və Məsuliyyət Limitlərinə daxildir və onlara əlavə deyil.

2.4 Sığorta Müqaviləsi əsasında sığorta həcmi Sığorta Müqaviləsi ilə əhatə olunan hər hansı düzgün iddia ilə bağlı ortaya çıxmış hər hansı ağlabatan Müdafiə Xərclərini əhatə edir.

2.5 Sığorta Müqaviləsi əsasında sığorta həcmi Sığortaçının sığorta müqaviləsi əsasımda məsuliyyəti qəbul etdiyi hər hansı düzgün iddia ilə bağlı ödəniləcək məbləği müəyyən etmək üçün tələb olunan informasiyasının hazırlanması və /və ya təsdiq edilməsi üçün **Sığortalı** tərəfindən və ya adından auditorlar, mühasiblər, vəkillər, arxitektorlar, mühəndislər, və digər ekspertlərə ödəniləcək bütün ağlabatan və zəruri haqları və eləcə də **Sığortalının** İşçilərinin xərclərini (yalnız həmin xərclər birbaşa olaraq iddia nəticəsində ortaya çıxan əlavə işlə əlaqədar olmalıdır) əhatə edir:

(a) Təzminat Sığortaçıya qarşı məhkəmə prosesi ilə bağlı hər hansı haqları və ya xərcləri əhatə etmir; və

(b) Həmin haqlar və xərclər hər Hadisə üzrə 5,000,000 (beş milyon) (100%) ABŞ dollarından artıq olmamalıdır.

2.6 Sığorta Müqaviləsi müstəqil təzminat müqaviləsidir və burada nəzərdə tutulanlardan heç biri Sığorta Müqaviləsini hər hansı digər sığortanın şərtləri, müddəaları və ya məhdudiyyətlərinə tabe olması kimi şərh edilməməlidir.

2.7 Sığorta Müqaviləsindən əvvəl, ondan sonra və ya onunla eyni zamanda hər hansı digər sığortaçı tərəfindən verilmiş sığorta Sığorta Müqaviləsində eyni səviyyə üzrə limitlərdən və ya səhm payından yüksək olduğu göstərilən sığortadan başqa, Sığorta Müqaviləsi ilə əhatə olunan itki (və ya 2.2 bəndi istisna olmaqla Sığorta Müqaviləsi ilə əhatə olunan) ilə bağlı **Sığortalı** üçün təmin edilirsə, Sığorta Müqaviləsi ilə təmin edilən sığorta eksedent olmalı və hər hansı belə sığortanı dəstəkləməməlidir.

2.8 Sığorta müqaviləsi əsasında sığorta həcmi **Sığortalının** tam və ya qismən məsuliyyət daşıdığı Hadisə nəticəsində baş verən xəsarət, itki və ya ziyanın qarşısını almaq və ya onu azaltmaq üçün **Sığortalı** tərəfindən ödənilmiş ağlabatan xərcləri əhatə edir, bu şərtlə ki, belə xərclərlə bağlı Sığortaçının məsuliyyəti həmin xərclərlə Sığortaçının əldə etdiyi qənaət məbləğindən artıq olmamalıdır.

## 3. SIĞORTAÇININ MƏSULİYYƏTİ

Sığorta Müqaviləsinə əsasən Sığortaçının məsuliyyət və öhdəlikləri yalnız Sığortaçının vəsaitlərindən təmin edilməlidir və Sığortaçının fərdi səhmdarları sığorta müqaviləsinə əsasən hər hansı **Sığortalı** qarşısında məsuliyyət daşımır.

## 4. ADI ÇƏKİLƏN SIĞORTALI TƏRƏFİNDƏN TƏMSİL OLUNMA

*Sorta müqavil□sind□ ad ç□kil□n Sortal Sorta Müqavil□sin□ □sas□n bütün m□s□l□l□rd□, o cüml□d□n m□hdudiyy□t olmadan sorta haqqnn öd□nilm□sind□, yenil□nm□ v□ t□nziml□nm□ □rtl□ri il□ bal danqlar, hesablama v□ itki üçün öd□ni v□ Sorta müqavil□sin□ xitam verm□ m□s□l□l□rind□ h□r bir Sortaln t□msil etm□lidir v□ bunlarla bal öhd□lik t□yin etm□k s□lahiyy□tin□ malikdir.*

## 5. HADİSƏ HAQQINDA BİLDİRİŞ

5.1 Sığorta müqaviləsinə əsasən **Sığortalının** hüquqlarının ilkin şərti kimi, **Sığortalı** Sığorta müqaviləsinə əsasən iddiaya zəmin yaratması ehtimal olunan hər hansı Hadisədən xəbərdar olan kimi, həmin Hadisə haqqında Sığortaçıya məlumat verməlidir.

5.2 5.1 bəndinə əsasən verilən bildiriş aydın formada Hadisə haqqında bildiriş kimi təyin edilir. Sığortaçıya necə təqdim edilməsindən asılı olmayaraq, ona verilən ümumi və ya xüsusi informasiya (məs. həlli gözlənilən və ya əvvəlki iddialar, rezervlər və ya ödənişlər və ya itkilərin keçməsi haqqında informasiya) yuxarıda qeyd edilən aydın təyinat olmadığı halda bu 5-ci bənd altında Hadisə haqqında bildirişi təşkil etmir.

5.3 Sığorta müddəti ərzində 5.1 və 5.2 bəndlərinə uyğun olaraq yazılı bildirişin təqdim edilməməsi (və ya Xüsusi Şərtlərdə göstərilən əlavə müddətdə) həmin Hadisə ilə bağlı Sığorta Müqaviləsinə əsasən sığorta üçün hər hansı hüquqlardan məhrum edilmə ilə nəticələnə bilər.

5.4 Hər hansı icraçı və ya məmur Hadisənin Sığorta Müqaviləsinə cəlb olunacağı haqqında məlumatlı olub olmamasından asılı olmayaraq Hadisə haqqında məlumatlı olarsa, **Sığortalı** həmin hadisə haqqında məlumatlı olmuş hesab edilir.

5.5 Hadisə haqqında bildirişdən sonra **Sığortalı** mümkün olduqca tez vaxt ərzində Sığortaçıya aşağıdakı məlumatları təqdim etməlidir:

(a) **Sığortalının** adı;

(b) Sığorta Müqaviləsinin nömrəsi;

(c) Hadisənin baş vermə vaxtı, tarixi və yeri (hər hansı müvafiq layihə /sahə adı ilə);

(d) Hadisənin vəziyyəti, hər hansı xəsarət və ya əmlak/ mülkiyyətə dəyən ziyan və itki göstərilməklə;

(e) **Sığortalının** təsirə məruz qalmış əmlak/mülkiyyətdə marağı;

(f) hər hansı məsul və ya təsirə məruz qalmış üçüncü tərəfin təfərrüatları;

(g) itki və ya iddianın hesablanmış dəyəri (Sığorta Müqaviləsinin valyutası ilə ifadə edilmiş);

(h) bərpa işlərinin tamamlanması və normal əməliyyatlara qayıtmaq üçün tələb olunan günlərin sayı; və

(i) **Sığortalının** əlaqə məlumatları.

## 6. MƏLUMAT VERMƏ ÖHDƏLİYİ

6.1 **Sığortalı** Sığortaçının hər hansı Hadisə və ya itki və **Sığortalıya** qarşı qaldırılmış hər hansı iddia, məhkəmə işi və ya hüquqi proseslər ilə bağlı və ya Sığorta müqaviləsinə əsasən sığorta həcminə aid olan və ya iddialar üçün ödəniş rezervi ilə bağlı istənilən vaxt məqsədəuyğun tələb edə biləcəyi bütün informasiya və sənədləri ona təqdim etməlidir (və ya təqdim olunmasını təmin etməlidir).

6.2 **Sığortalı** itki və ya iddianın hesablanmış dəyərinə əhəmiyyətli dərəcədə təsir edən hər hansı vəziyyət haqqında dərhal Sığortaçıya məlumat verməlidir.

## 7. İDDİALAR

7.1 Sığorta müqaviləsinə əsasən iddialar tənzimlənir və **Sığortalıya** və ya **Sığortalının** yazılı formada göstərdiyi digər tərəfə ödənilir.

7.2 İlk iddia ilə əlaqədar hesablaşma aparıldıqdan sonra eyni Hadisə ilə bağlı ortaya çıxan, **Sığortalı** tərəfindən təqdim edilmiş hər hansı iddia bütün alınmış təzminatlar çıxıldıqdan sonra, həmin hesablaşmadan əvvəl təqdim edilmiş kimi hesab olunacaq və Sığorta Müqaviləsi və **Sığortalının** eksedent və ya əsas sığortaçı kimi mövcud olan sığortaları əsasında **Sığortalını** maksimum təzminatla təmin etmək üçün bütün zəruri tənzimlənmələr aparılmalıdır.

7.3 **Sığortalı** və ya **Sığortalının** digər sığortaçıları tərəfindən hüquqi valyutadan fərqli valyutada ödənilmiş hər hansı kompensasiya aşağı xərclər və ya bazar dəyərində qiymətləndirilməlidir və **Sığortalının** gəliri və ya **Sığortalıya** ödənilən digər müavinətin hər hansı elementi həmin kompensasiyanın dəyəri müəyyənləşdirilərkən çıxılmalıdır.

## 8. MÜDAFİƏ ÖHDƏLİYİNİN OLMAMASI; YARDIM VƏ ƏMƏKDAŞLIQ

8.1 Sığortaçı itkilər və ya hər hansı digər müdafiə vasitəsi üçün **Sığortalıya** qarşı irəli sürülmüş hər hansı iddia, məhkəmə işi və ya proseslərinin həll olunması və ya müdafiəsi üçün öhdəlik götürmür, lakin Sığortaçı onun cəlb olunduğu və ya cəlb olunması ehtimal olunan hər hansı Hadisə ilə əlaqədar hər hansı iddia, məhkəmə işi və ya hüquqi proseslərin müdafiəsində və idarə olunmasında **Sığortalı ilə** birləşmək hüququna malikdir və belə vəziyyətdə onun üçün bu imkan yaradılmalıdır, bu halda **Sığortalı** və Sığortaçı həmin iddia, məhkəmə işi və ya prosesinin müdafiəsi ilə bağlı bütün işlərdə əməkdaşlıq etməlidir.

8.2 Əgər məsuliyyət, itkilər, xərclər və ödənişlər qismən bu Sığorta müqaviləsi ilə əhatə olunur və qismən əhatə olunmursa, **Sığortalı** və Sığortaçı onların əhatə olunan və olunmayan məbləğlərin arasında ədalətli və düzgün bölünməsini razılaşdırmaq üçün bütün səylərdən istifadə etməli və **Sığortalı** bununla bağlı bütün xüsusi informasiyanı təmin etməklə həmin səylərə kömək etməlidir.

8.3 Bu 8-ci bəndlə əlaqədar Sığortaçı tərəfindən iddiaların təqdim edilməsi ilə bağlı çəkilmiş xərclər onun öz hesabına olacaq və Məsuliyyət Limitinin bir hissəsini təşkil etməyəcək.

## 9. QƏRARLAR VƏ APELYASİYA

9.1 Siğortaçı Sığorta Müqaviləsinə əsasən qərar və ya hesablaşma üzrə **Sığortalının** məsuliyyətinin hansı dərəcədə əhatə olunduğunu müəyyən etmək üçün **Sığortalıya** qarşı həmin qərar və ya onun tərəfindən hesablaşmaya zəmin yaradan faktları araşdıra bilər.

9.2 **Sığortalı** və ya **Sığortalının** digər sığortaçıları qərarla bağlı apelyasiya irəli sürməməyə qərar verərsə, Sığortaçı **Sığortalıdan** həmin apelyasiyasını Sığortaçının hesabına təqdim etməyi tələb edə və **Sığortalı** da bununla razılaşa bilər. Sığortaçı həmin apelyasiya və apelyasiya ərzində əmələ gələn qərar sonrası faizin ödənilməsi və üzərinə vergi qoyulan xərclər üçün məsuliyyət daşıyır. Lakin, heç bir halda Sığortaçının məsuliyyəti Məsuliyyət Limitləri əlavə olaraq həmin apelyasiya xərcləri və ödənişlərindən artıq olmamalıdır.

## 10. SUBROQASİYA, XİLAS ETMƏ VƏ TƏZMİNATLAR

10.1 Sığorta müqaviləsinə əsasən hər hansı təzminat ödənilərsə, Sığortaçı hər hansı xilasetmə, subroqasiya, və ya digər təzminat iddialarını, hərəkət və prosedurların keçirilməsini öz üzərinə götürmək hüququna malikdir. Belə hallarda **Sığortalı** Sığortaçının məqsədəuyğun tələb edə biləcəyi bütün əməkdaşlıq və yardımı göstərməlidir. Bu 10.1 bəndi 11.1 bəndinin şərtlərini üstələmir.

10.2 Sığortaçı tərəfindən hər hansı hesablaşmadan sonra ödənilmiş və ya alınmış bütün təzminatlar, ödənişlər və xilasetmə xərcləri belə hesablaşmadan əvvəl ödənilmiş və ya alınmış hesab olunur. Təzminatın verilməsinə ortaya çıxan xərclər ödənilmiş hər hansı məbləğlərdən çıxılmalıdır və daha sonra balans ümumi itki məbləğinə tətbiq edilməli və onu azaltmalıdır (o cümlədən Məsuliyyət Limitlərindən artıq **Sığortalı** tərəfindən ödənilmiş hər hansı məbləğ) və Sığortaçı və **Sığortalı** arasında zəruri tənzimlənmələr aparılmalıdır. Bu alt bənddə nəzərdə tutulanlardan heç biri **Sığortalının** ümumi itkisi yekun dəqiqləşdirilənə qədər Sığorta Müqaviləsi əsasında itkinin qarşılığının ödənilməyəcəyini ifadə etmir.

## 11. İCAZƏLƏR VƏ İMTİYAZ

11.1 **Sığortalının** əsasında məsuliyyət götürə biləcəyi biznesinin həyata keçirilməsi üçün standart və ya zəruri olan, yazılı və ya şifahi müqavilələr və ya sazişləri həyata keçirməsi və ya Sığorta müqaviləsinə xələl gətirmədən itkidən əvvəl Sığortaçının subroqasiya hüquqlarından imtina edilməsi üçün bununla **Sığortalı** və ya **Sığortalı** adından fəaliyyət göstərən hər hansı digər tərəfə icazə verilir  və Sığortaçının hüquq və öhdəlikləri həmin müqavilə və ya sazişlərin şərtləri ilə idarə edilir.

11.2 Hadisədən sonra bütün zəruri əmlakın dəyişdirilməsi və təmir işlərinin dərhal həyata keçirilməsi üçün icazə verilir.

11.3 Dağılmış və ya ziyan dəymiş mülkiyyət dəyişdirilib, təmir edilməyənə qədər **Sığortalıdan** itkinin sübutunu təqdim etmək tələb olunmur.

## 12. MƏLUM İTKİLƏR

Hər hansı Hadisə ilə əlaqədar **Sığortalının** həmin Hadisə haqqında Başlanğıc tarixində məlumatlı olmaması **Sığortalının** hüquqlarının ilkin şərtidir.

## 13. FAKTLARIN TƏHRİF EDİLMƏSİ VƏ MƏLUMAT VERMƏMƏ

13.1 Sığortaçı Sığorta müqaviləsinin hər hansı zəmanəti və ya şərti ilə bağlı saxtakarlıq, faktların təhrif edilməsi, açıqlanmaması və ya pozulması hallarında **Sığortalıya** qarşı məsuliyyət və ya ziyanla bağlı iddiadan yayınmaq hüququna malikdir, qeyd edilənlərdən hər birinə "Hüquqlardan məhrum etmə aktı" kimi  istinad olunur.

13.2 Hüquqlardan məhrum etmə aktı və ya diər **Sığortalı** tərəfindən törədilmiş etinasızlıq hüquqlardan məhrum etmə və ya etinasızlıq göstərməmiş **Sığortalının** kompensasiya edilmək hüququna xələl gətirmir.

13.3 Sığortaçı bununla **Sığortalıya** qarşı mövcud olan və ya əldə etmiş olduğu bütün subroqasiya hüquqlarından imtina etməyə razılaşır, subroqasiya və ya reqress hüquqlarının Hüquqlardan məhrum edilmə aktı nəticəsində və ya ondan sonra əldə edildiyi hallar istisna olunur ki, bu halda da Sığortaçı **Sığortalı** kimi hüquqlardan məhrum edilən tərəfin davam etməkdə olan və ya əvvəlki vəziyyətinə baxmayaraq, həmin hüquqları həyata keçirə bilər.

## 14. MÜSADİRƏ VƏ SAXTA İDDİALAR

Əgər **Sığortalı** məbləğ və ya digər məsələ ilə bağlı saxta və ya yalan iddia olduğunu bilərək iddia irəli sürərsə, həmin iddia ilə bağlı Sığorta Müqaviləsinə əsasən nəzərdə tutulan bütün və hər hansı təzminatlar müsadirə ediləcək.

## 15. YOXLAMA VƏ AUDİT

15.1 Sığortaçı və onun səlahiyyətli nümayəndələri məqsədəuyğun vaxtlarda **Sığortalının** mülkiyyəti və əməliyyatlarını yoxlamaq və bu Sığorta müqaviləsinə əsasən hər hansı sığorta həcmi və iddia məsələsi ilə bağlı öz hesablarına bütün sənədləri, jurnalları və qeydləri (o cümlədən kompüter məlumatlarını) araşdırmaq, auditini aparmaq və surətini çıxarmaq hüququna malikdirlər, lakin qeyd edilənlər onların vəzifəsinə aid deyil.

15.2 Yoxlanılması və ya auditinin keçirilməsi tələb olunan hər hansı informasiyanın mənşəyi üçüncü tərəfdirsə və **Sığortalı** və üçüncü tərəf arasında əvvəlcədən mövcud olan yazılı məxfilik sazişinə tabedirsə, **Sığortalı**:

(a) Həmin sənədlər və ya informasiyanın verilməsindən əvvəl gözlənilən yoxlama haqqında üçüncü tərəfi məlumatlandıracağını və zəruri olduqda müvafiq razılığı alacağını  təsdiq edir; və

(b) Sığortaçıdan müvafiq məxfilik sazişinin imzalanmasını tələb edə bilər.

15.3 Nə Sığortaçının yoxlama aparmaq hüququ, nə həmin yoxlamaların həyata keçirilməsi, nə də bununla bağlı hər hansı hesabat **Sığortalı** və ya digərləri adından və ya onların xeyrinə həmin mülkiyyət və ya əməliyyatların təhlükəsiz olduğunu müəyyən etmək və ya buna zəmanət vermək öhdəliyini təşkil etmir.

## 16. VALYUTA VƏ MÜBADİLƏ

16.1 Sığorta müqaviləsində digər tətbiq edilən valyuta göstərilmədiyi və ya qanunla təyin edilmədiyi halda, sığorta haqları və iddiaların ödənilməsi üçün tətbiq olunan valyuta Azərbaycan manatıdır.

16.2 Tətbiq olunan valyutadan başqa valyutada qərar yerinə yetirilərsə, hesablaşma təyin edilərsə və ya ziyanın digər elementi göstərilərsə, Sığorta Müqaviləsinə əsasən ödəniş **Sığortalının** yekun qərar, hesablaşma və ya ziyanın digər elementləri üçün ödəniş etdiyi tarixdə Virtual Xəzinədar üzrə mübadilə məzənnəsinə konvertasiya edilmiş tətbiq olunan valyutada ödənilməlidir.

16.3 Tətbiq olunan valyutadan başqa valyutada itki baş verdikdə, həmin itkinin ödənişi aşağıda göstərilən müvafiq tarixdə uyğun mübadilə məzənnəsini tətbiq etməklə tətbiq olunan valyutada aparılmalıdır:

(a) Uyğun mübadilə məzənnəsi Londonda müvafiq tarixdə gündüz vaxtı müvafiq valyuta üçün alış məzənnəsidir. İddia işə başlanmanın gecikdirilməsi və ya biznes fəaliyyətinin dayanmasına görədirsə, müvafiq mübadilə məzənnəsi iddiaların əlaqəli olduğu gecikmə və ya dayanma müddəti ərzində yuxarıda qeyd olunan məzənnənin orta göstəricisidir; və

(b) Müvafiq tarix **Sığortalı** tərəfindən iddianın hesablanan iddia kimi Sığortaçıya ilk təqdim edildiyi tarixdir, aşağıdakı hallar istisna edilir:

(i) Mülkiyyətə ziyan dəydiyi halda, müvafiq tarix **Sığortalının** təmir, bərpa və ya dəyişdirilmə üçün ödəniş etməli olduğu tarix və ya **Sığortalının** iddiasının Sığortaçı tərəfindən ödənildiyi tarix və ya tarixlərdir; və

(ii) üçüncü tərəfə qarşı öhdəlik olduqda, müvafiq tarix, **Sığortalının** həmin öhdəliyi yerinə yetirməli olduğu tarixdir.

## 17. OBYEKTLƏRİN YENİDƏN QURULMASI VƏ DƏYİŞDİRİLMƏSİ

17.1 **Sığortalı** aşağıdakılarda hər hansı əhəmiyyətli dəyişikliklər olduqda dərhal Sığortaçıya məlumat verməlidir:

(a) **Sığortalının** strukturu, onların sahibkarlığı və ya idarəçiliyi; və ya

(b) **Sığortalının** vəsaitləri və ya dövriyə həcmi.

17.2 Sığorta Müddəti ərzində **Sığortalı** tərəfindən alınmış və ya formalaşdırılmış və ya onunla birləşdirilmiş hər hansı təşkilat alınma, formalaşma və ya birləşmə tarixində və ya Sığortaçı tərəfindən razılaşdırılan digər tarixdə **Sığortalıya** çevrilir. Sığorta Müddəti ərzində **Sığortalı** aktivlərin əldə edilməsi ilə biznes, bölmə və ya digər əməliyyatları əldə edirsə, həmin aktivlərin alınması bu 17.2 bəndinin məqsədlərinə uyğun olaraq təşkilatın alınması hesab edilir.

17.3 **Sığortalı** təşkilat 1.1 bəndində müəyyən edildiyi kimi **Sığortalı** qismində olmağı dayandırarsa, Sığorta müqaviləsinə əsasən həmin təşkilat üçün sığorta həcminə avtomatik xitam verilir. Sığorta həcmi Adı çəkilən **Sığortalı** və əgər varsa, keçmiş törəmə şirkət, filial və ya birgə şirkətin sahibkarlığından və ya onlarla birləşmədən ortaya çıxan məsuliyyəti üçün **Sığortalı** kimi qalan hər hansı təşkilatla əlaqədar davam edir.

## 18. BİRGƏ MÜƏSSİSƏLƏR VƏ TƏRƏFLƏRİN MARAQLARI

18.1 **Sığortalının** marağı olan hər hansı Birgə Müəssisənin əməliyyatlarından və ya mövcudluğundan hər hansı yolla ortaya çıxan **Sığortalının** məsuliyyəti ilə əlaqədar Sığorta müqaviləsinə əsasən Sığortaçının hüquqi məsuliyyəti 18.2 bəndində nəzərdə tutulanlar və ya Sığortaçı ilə yazılı formada razılaşdırılmış hallar istisna olmaqla, **Sığortalının** Birgə Müəssisədə marağını əks etdirən məsuliyyət həcmi ilə məhdudlaşır.

18.2 Əgər:

(a) itki vəziyyəti nəticəsində Birgə Müəssisə sazişinin (və ya bənzər rəhbər saziş) şərtləri Birgə Müəssisənin bütün itkisi və ya onun bir hissəsi üçün **Sığortalı** üzərinə onun Birgə Müəssisədəki faktiki marağından artıq öhdəlik qoyarsa; və ya

(b) Səlahiyyətli yurisdiksiyası olan məhkəmə və ya müvafiq olaraq təyin edilmiş məhkəmə tərəfindən **Sığortalı** Birgə Müəssisədə olan faktiki marağından artıq həcmdə itki üçün cavabdeh hesab edilərsə,

Bu Sığorta müqaviləsinə əsasən sığorta həcmi həmin məsuliyyətə şamil edilməlidir.

18.3 Hər hansı bənd (o cümlədən Məsuliyyət Limiti və ya məsuliyyətin saxlanılması və ya alt limiti) yüz faiz maraq üçün ifadə olunduqda, **Sığortalının** müvafiq mülkiyyətdə marağı həmin maddənin yüz faizi qədərində deyilsə, həmin bənd proporsional olaraq azaldılmalı və **Sığortalının** qeyd olunan mülkiyyətdəki ümumi marağı ilə eyni həcmdə tətbiq edilməlidir.

18.4 18.2 Bəndində nəzərdə tutulanlar istisna olmaqla, Hadisə Sığorta Müqaviləsinə əsasən kompensasiya edilə bilən iddiaya zəmin yaradarsa, Sığortaçının məsuliyyəti heç bir halda Hadisə baş verdiyi vaxt **Sığortalının** mülkiyyətdə və ya mənbədə olan marağından yüksək olmamalıdır.

## 19. DÜZƏLİŞ VƏ İMTİNA

19.1 Sığorta müqaviləsi sənədində təsdiq edilməyən və Sığortaçı tərəfindən imzalanmayan hallarda Sığorta müqaviləsi altında hər hansı hüququn ötürülməsi və onun şərtlərinin dəyişdirilməsi, şərtlərdən imtina edilməsi və ya genişləndirilməsi etibarlı sayılmır.

19.2 Sığorta müqaviləsi ilə nəzərdə tutulan hər hansı şərt, müddəa, və hüquqdan tərəfin imtina etməsi hər hansı digər şərt, müddəa və ya hüquqdan imtina kimi hesab edilmir, nə də bu kimi imtina eyni və ya digər şərt və ya müddəa və ya hər hansı digər hüququn sonradan pozulması hesab edilmir. Hər hansı tərəfin Sığorta müqaviləsi müddəalarından hər hansını həyata keçirə bilməməsi onun həmin müddəaların həyata keçirilməsi hüququndan imtina etməsi hesab olunmur.

## 20. XİTAM VERMƏ

20.1 Bu sığorta müqaviləsinə aşağıdakı hallarda xitam verilə bilər:

(a) Sığortaçıya yazılı bildiriş təqdim etməklə **Sığortalı** tərəfindən istənilən vaxt; və ya

(b) Adı çəkilən **Sığortalıya** otuz (30) gün əvvəlcədən yazılı bildiriş təqdim etməklə Sığortaçı tərəfindən (bu şərtlə ki, həmin bildiriş müddəti qüvvədə olan qanunla tələb olunan müddətdən azdırsa, bu formada tələb olunan minimum müddət tətbiq edilməlidir).

20.2 Sığorta müqaviləsinə aşağıdakı hallarda dərhal hüquqi qüvvəyə malik olmaqla xitam verilir:

(a) Sığorta Müddəti başa çatdıqda; və ya

(b) **Sığortalının** satışının tamamlanması, **Sığortalının** sahibkarlığında əhəmiyyətli dəyişiklik və ya Sığortaçının qüvvədə olduğu və ya nəzarət subyekti olmayan digər təşkilatla **Sığortalının** birləşməsi tarixindən.

20.3 Sığortaçının xitam verilmə haqqında bildirişi Sığortaçının hər hansı ödəniş etməsi və ya sığorta haqqının qaytarılmasını təklif etməsindən asılı olmayaraq qüvvə minir.

**21. SƏHVLƏR VƏ NƏZƏRDƏN QAÇIRMALAR**

Heç bir təsadüfi səhv, nəzərdən qaçirma və ya gecikmə **Sığortalı** hüquqları, o cümlədən təzminat alma hüququna xələl gətirmir. Belə hallar aşkarlandıqda zəruri bərpa tədbirləri ən tez məqsədəuyğun zamanda həyata keçirilməlidir. Yuxarıda qeyd edilənlər maddə 5 və ya Sığorta Müqaviləsində hər hansı digər xüsusi hesabat vermə və ya aşkarlama müddəalarını üstələmir.

**22. MÜDDƏALARIN ETİBARSIZLIĞI**

Sığorta müqaviləsinin digər müddəalarına xələl gətirmədən, Sığorta Müqaviləsinin müddəası qanunsuz, həyata keçirilməsi mümkün olmayan və ya digər yolla etibarsız müddəa olarsa, ümumi məqsədlə hüquqi, etibarlı və ya həyata keçirilməsi mümkün olan müddəa olması üçün həmin müddəa minimum zəruri düzəlişlə tətbiq edilməlidir (Adı çəkilən **Sığortalı** və Sığortaçı arasında razılaşdırıldığı kimi).

**23. ÜÇÜNCÜ TƏRƏFLƏRİN HÜQUQLARININ MƏHDUDLAŞDIRILMASI**

Sığorta müqaviləsinin tərəfi olmayan və ya Sığorta Müqaviləsinə əsasən **Sığortalı** olmayan şəxsin Sığorta müqaviləsinin şərtini həyata keçirmək və ya 1999-cu il tarixli Müqavilələr haqqında Qanunun (Üçüncü Tərəflərin Hüquqları) müddəalarına uyğun olaraq onun razılığı olmadan bu Sığorta Müqaviləsinin ləğv edilə, dəyişdirilə bilməməsi hüquqları Sığorta Müqaviləsinə daxil deyil.

**24. QANUN VƏ YURİSDİKSİYA**

24.1 Sığorta Müqaviləsi və ondan irəli gələn və ya onunla bağlı olan hər hansı qeyri-müqavilə öhdəlikləri Azərbaycan Respublikasının (müqavilədə digər qanun və yurisdiksiya razilaşdırılmayıbsa) qanununa uyğun olaraq idarə edilir və şərh edilir.

24.2 Bu Sığorta müqaviləsinə əsasən və ya onunla əlaqədar ortaya çıxan hər hansı mübahisə, o cümlədən onun mövcudluğu, tətbiqi, etibarlılığı, şərhi, pozulması, ləğv edilməsi və ya xitam verilməsi ilə bağlı olan hər hansı suallar London Beynəlxalq Arbitraj Məhkəməsinin (LBAM) Qaydalarına əsasən qəti həll edilir, həmin məhkəmənin Qaydaları bu bənddə istinad edilməklə daxil olunmuş hesab edilir. Arbitrlərin sayı 3 olmalıdır, Arbitrajın yerləşdiyi və hüquqi yeri İngiltərə olmalıdır və arbitraj proseslərində İngilis dilindən istifadə edilməlidir. Arbitrlər bu Sığorta Müqaviləsini idarə edən qanunu tətbiq etməlidirlər.

**25. TAM MÜQAVİLƏ**

Sığorta Müqaviləsi (və 19.1 bəndinə müvafiq olaraq hər hansı düzəlişlər) Sığorta müqaviləsi sənədində göstərilən sığorta müddəası ilə əlaqədar tərəflər arasında tam müqaviləni təşkil edir.

## HİSSƏ B – İSTİSNALAR VƏ MƏHDUDİYYƏTLƏR

### 26. QEYRİ-QANUNİ XƏRCLƏR

Bu Sığorta müqaviləsi əsasında sığorta tətbiq edilən qanunla qadağan edilən səviyyədə ziyan, Müdafiə xərcləri və ya hüquqi xərclər üçün məsuliyyətə şamil olunmur və onları əhatə etmir.

### 27. RADİOAKTİV ÇİRKLƏNMƏ VƏ SİLAHLAR

Bu Sığorta müqaviləsi əsasında sığorta birbaşa və ya dolayı yolla aşağıdakıların zəmin yaratdığı və ya onlardan irəli gələn itki, ziyan, məsuliyyət, və ya xərclərə şamil edilmir və onları əhatə etmir:

(a) Nüvə yanacağı və ya hər hansı nüvə tullantısı və ya nüvə yanacağının yanmasından əmələ gələn radioaktivlikdən ionlaşdırıcı radiasiya və ya çirklənmə;

(b) Hər hansı nüvə qurğusu, reaktor, və ya digər nüvə bloku və ya onun nüvə komponentinin radioaktiv, zəhərli, partlayıcı və ya digər təhlükəli və ya çirkləndirici xüsusiyyətləri;

(c) Atom və ya nüvə hissəciyi və/ və ya sintezi və ya digər bənzər reaksiya və ya radioaktiv qüvvə və ya maddənin tətbiq edildiyi hər hansı silah və ya qurğu;

(d) Hər hansı radioaktiv maddənin radioaktiv, zəhərli, partlayıcı, və ya digər təhlükəli və ya çirkləndirici xüsusiyyətləri. Bu alt bənddə istisna nüvə yanacağından başqa radioaktiv izotoplara şamil edilmir (həmin izotoplar kommersiya, kənd təsərrüfatı, tibbi, elmi və ya digər buna bənzər sülh məqsədləri üçün hazırlandıqda, daşındıqda, saxlanıldıqda və ya istifadə edildikdə); və ya

(e) hər hansı kimyəvi, bioloji, bio-kimyəvi və ya elektromaqnit silah.

### 28. KİBER

Sığorta müqaviləsinə əsasən sığorta aşağıdakıların hər hansı biri nəticəsində birbaşa və ya dolayı yolla yaranan, onların səbəb olduğu itki, ziyan, məsuliyyət, xərc və ya ödənişlərə tətbiq olunmur və onları əhatə etmir:

(a) Məlumatların itirilməsi, korrupsiyası, proqram və ya proqram təminatının kodlaşdırılması, və / və ya məlumatların əlverişsizliyi və avadanlığın, proqram təminatının nasazlığı, daxil edilmiş mikrosxemlər, və / və ya onlar nəticəsində biznes fəaliyyətinin dayanması itkiləri;

(b) Ziyan vurmaq məqsədilə hər hansı kompüter, kompüter sistemi, kompüter proqram təminatı, zərərli proqram kodu, kompüter virusu və ya proses və ya hər hansı digər elektron sistemdən istifadə və ya onların idarə edilməsi.

## XÜSUSİ ŞƏRTLƏR

## ÜMUMİ MƏSULİYYƏT SIĞORTASI

### HİSSƏ A – SIĞORTA TƏMİNATI

1. ANLAYIŞLAR VƏ TƏFSİR
2. SIĞORTA TƏMİNATI VƏ TƏZMİNAT
3. ÇARPAZ MƏSULİYYƏT
4. SIĞORTA TARİXLƏRİ

### HİSSƏ B – İSTİSNALAR VƏ MƏHDUDİYYƏTLƏR

5. İŞÇİLƏR VƏ XİDMƏTÇİLƏRİN KOMPENSASİYASI
6. PEŞƏKAR XİDMƏTLƏR
7. ƏMLAKA HIMAYYƏ, İSTIFADƏ VƏ NƏZARƏT OLUNMASI
8. SƏMƏRƏLİLİK VƏ İSTİFADƏNİN MÜMKÜNSÜZLÜYÜ
9. REKLAM FƏALIYYƏTI ILƏ BAĞLI MƏSULIYYƏT
10. ZƏHƏRLİ MADDƏLƏR
11. HAVA GƏMİSİ
12. GƏMİ VƏ KİRƏÇİNİN MƏSULİYYƏTİ
13. AVTOMOBİLLƏR
14. İŞÇİNİN MÜAVİNƏTLƏRİ
15. TƏKRAR STRES
16. QİYMƏTLİ KAĞIZLAR VƏ MONOPOLİYA
17. YANLIŞ İŞƏGÖTÜRMƏ TƏCRÜBƏSİ
18. ELEKTROMAQNİT SAHƏLƏRİ
19. ÇİRKLƏNMƏ
20. TERROR
21. İŞƏGÖTÜRƏNİN MƏSULİYYƏTİ
22. TİKİNTİ İLƏ BAĞLI MƏSULİYYƏT

## HİSSƏ A – SIĞORTA TƏMİNATI

### 1. ANLAYIŞLAR VƏ TƏFSİR

1.1 Aşağıdakı terminlər aşağıda müəyyən edilmiş mənaları ifadə edir:

**A Reklam fəaliyyəti ilə bağlı məsuliyyət**

Aşağıdakılar hesabına məsuliyyəti ifadə edir:

Hər hansı reklam, ictimai məqalə, yayım və ya televisiya verilişində törədilmiş və ya törədilməsi iddia olunan və **Sığortalının** reklam fəaliyyətlərindən irəli gələn

(a) böhtan, şər və ya diffamasiya;

(b) müəllif hüququ və ya mülkiyyət hüququ və ya şüarın pozulması;

(c) müəlliflik hüququnun pozulması və ya nəzərdə tutulan müqavilə əsasında ideyaların mənimsənilməsi, və ya

(d) gizlilik hüququna daxil olma,

**B Sığorta tarixi**

Müqavilədə göstərildiyi kimi.

**C İtkilər**

**Sığortalının** qərar və ya hesablaşmaya görə ödəməli olduğu, dövlət ərimələri (mülki və ya kriminal) istisna olmaqla, bütün kompensasiya itkiləri, qanunla nəzərdə tutulan kompensasiya ödənişləri, cəza və ya pul itkiləri və ya səciyyəvi pul təzminatı, və ədalət hüququ üzrə müdafiə vasitəsinin təmin edilməsi üçün xərclərin bütün formalarını ifadə edir.

**D Atqı**

Atqı, emissiya, yayılma, sızma, hərəkət etmə, axıdılma və ya dağılmanı (və ya eyni sahədə qeyd edilənlərin bənzər xarakterli hadisələri) ifadə edir, lakin Çirkləndiricilərin əvvəlcədən yerləşdiyi bina və ya digər süni konstruksiyada məhdudlaşdırılaraq qaldığı səviyyədə hər hansı atqı, emissiya, yayılma, hərəkət etmə, axıdılma və ya dağılmanı əhatə etmir.

**E İşçi**

Ümumi Şərtlərdə müəyyən edilmiş mənanı ifadə edir, Yanlış İşəgötürmə Təcrübələri ilə əlaqədar sığorta və istisna məqsədlərilə "İşçi" sözünün **Sığortalı** tərəfindən işə götürülmüş və ya onun ödəniş cədvəli ilə ödəniş edilən və ya edilmiş hər hansı fərd, o cümlədən hər hansı keçmiş, indiki, ştatdan kənar, mövsümi və ya müvəqqəti İşçini, eləcə də **Sığortalının** işə götürməsi üçün müraciət edən hər hansı ərizəçini ifadə etdiyi hallar istisna olunur. Müstəqil podratçı, müstəqil podratçının işçisi və ya icarə əsasında işləyən işçiyə tətbiq edilən qanuna əsasən **Sığortalının** işçisi kimi yanaşma olmayana qədər İşçi hesab edilmir.

**F Gəmidən təsadüfi istifadə**

**Sığortalı** tərəfindən uzunluğu 75 futdan az olan hər hansı şəxsi, icarəyə götürülmüş və ya fraxtlanmış gəmidən istifadəni ifadə edir, lakin aşağıdakılarla əlaqədar gəmidən istifadəni əhatə etmir:

(a) ödənişli sərnişinlərin kommersiya daşınması və ya **Sığortalı**dan başqa tərəflər üçün ödəniş müqabilində yük daşınmaları üçün;

(b) ödəniş müqabilində digərləri üçün dəniz xidmətlərinin kommersiya təminatı ilə əlaqədar;

(c) Gəminin icarəyə götürülməsi və ya fraxtlanması işində **Sığortalı** tərəfindən inventarda saxlanılan və ya digər şəxsə icarəyə və ya fraxta verilən; və ya

(d) **Sığortalı**dan başqa bir tərəfə məxsus olan, xidmət, qulluq göstərilən, yanacaq doldurulan, ə ya sınaqdan keçirilən və ya Gəmiyə xidmət göstərmə, qulluq, yanacaq doldurma, sınaqdan keçirmə, saxlanılma və ya buna bənzər məsələlərlə bağlı **Sığortalının** biznes əməliyyatlarından hər hansı biri ilə əlaqədar **Sığortalının** müvəqqəti nəzarəti, mühafizəsi və ya idarəetməsi altında olan.

**G Hadisə**

Sığorta Tarixində və ya ondan sonra başlayan və Sığorta müqaviləsinin müddətinin başa çatması və ya ona xitam verilməsindən əvvəl baş verən və faktiki və ya iddia edilən Şəxsi Xəsarət, Mülkiyyətə Ziyan, Məhsulla bağlı Məsuliyyət, Reklam fəaliyyəti ilə bağlı məsuliyyət, və ya Yalnız işəgötürmə təcrübələri ilə bağlı Məsuliyyətə səbəb olan qəza, və ya hadisə, və ya vəziyyətlərə davamlı, fasilələrlə və ya təkrar məruz qalmanı ifadə edir.

Hadisə mövcud olduqda və eyni və ya iddia edilən hadisə, vəziyyət, səbəb, qüsur, təhlükə ilə birbaşa və ya dolayı yolla əlaqələndirilən bir neçə və ya bir sıra faktiki və ya iddia edilən ziyan, xəsarət və ya məsuliyyət hadisəsi baş verdikdə, və bunlar haqqında xəbərdarlıq edilmədiyi halda, bütün bu kimi faktiki və ya iddia edilən hadisələr ümumiləşdirilir və faktiki və ya iddia edilən hadisələrin baş vermə müddəti, coğrafi ərazisi və ya vəziyyətlərindən asılı olmayaraq bir Hadisə ilə əhatə edilir.

Məhsulların layihələndirilməsi, formalaşdırılması, istehsalı, paylanması, istifadəsi, idarə edilməsi, texniki xidməti və / və ya təmiri nəticəsində orta çıxan və ya iddia edilən ziyan, xəsarət və ya məsuliyyətlə əlaqədar və / və ya Məhsulların istifadəsi idarə edilməsi, texniki xidməti və / və ya təmiri ilə əlaqədar xəbərdarlıq edilmədiyi halda, "eyni faktiki və ya iddia edilən hadisə, vəziyyət, səbəb, qüsur, təhlükə və / və ya bunun haqqında xəbərdarlıq verməmə" termini həmin hadisə, xəsarət, və ya məsuliyyətin birbaşa, dolayı yolla, və ya iddia edilərək əlaqələndirildiyi hər hansı layihələndirilmə, formalaşdırması, istehsal, paylanma, istifadə, idarə edilmə, texniki xidmət, təmir və xəbərdarlıq etməməni ifadə edir.

Reklam fəaliyyəti Məsuliyyəti ilə əlaqədar olaraq, eyni və ya bənzər materialların çoxsaylı, və ya təkrar yayımlanması və ya nəşri "eyni faktiki və ya iddia edilən hadisə, vəziyyət, səbəb və ya qüsuru" ifadə edir.

**H Çirkləndirici**

Hər hansı bərk, maye, qaz şəkilli və ya termik qıcıqlandırıcı, çirkləndirici və ya zəhərli və ya təhlükəli maddəni və ya ətraf mühit, mülkiyyət, insanlar, və ya heyvanlara mənfi təsir edə bilən və ya etməsi ehtimal olunan hər hansı maddəni, o cümlədən tüstü, buxar, his, buğ, turşular, qələvilər, kimyəvi maddələr və tullantıları ifadə edir.

**I Məhsul üzrə Məsuliyyət**

Məhsulların son istifadəsindən irəli gələn Şəxsi Xəsarət və ya Mülkiyyətə Ziyan üçün məsuliyyəti və ya iddia edilən məsuliyyəti ifadə edir. Əgər belə istifadə həmin Məhsulların mülkiyyəti **Sığortalı** və ya onun adı altında fəaliyyət göstərən digərləri tərəfindən digərlər şəxslərə keçirildikdən sonra baş verərsə, və həmin istifadə **Sığortalıya** məxsus olan, onun tərəfindən icarəyə götürülmüş və ya nəzarət olunan obyektlərdən kənarda baş verərsə, həmin Məhsullara Avtomobil, Gəmi və ya Hava Gəmisindən başqa, onların konteyneri də daxildir.

**J Mülkiyyətə ziyan**

Aşağıdakıları ifadə edir:

(a) Maddi mülkiyyətə fiziki ziyan və ya onun dağıdılması, o cümlədən istənilən vaxt buradan irəli gələn istifadənin mümkünsüzlüyü;

(b) Digər maddi mülkiyyətə fiziki ziyan dəyməsi və ya onun dağılması ilə ziyan dəyməmiş maddi mülkiyyətin istifadəsinin mümkünsüzlüyü; və ya

(c) Faktiki və ya baş verməsi ehtimal edilən Şəxsi Xəsarət və ya maddi mülkiyyətin dağılmasından irəli gələn təxliyə nəticəsində itkilər.

**K Tullantı**

Bütün tullantıları ifadə edir və məhdudiyyət olmadan atılacaq, təkrar dövriyyəyə qaytarılacaq, emal ediləcək, utilizasiya olunacaq və ya yekun utilizasiyası üçün saxlanılan materialları əhatə edir, lakin buraya katalizatorun regenerasiyası üçün saxlanılan materiallar daxil deyil.

**L Yanlış işəgötürmə təcrübəsi**

Aşağıdakı göstərilənlərin hər hansı faktiki və ya ehtimal edilən təzahürünü ifadə edir:

(a) Yanlış işdən azad etmə, çıxarma, və ya işə faktiki və ya konstruktiv xitam vermə;

(b) işəgötürmə ilə əlaqədar faktların təhrif edilməsi;

(c) yanlış işəgötürmə və ya vəzifə yüksəlişi xətası;

(d) karyera imkanından yalnız məhrum etmə;

(e) yanlış intizam;

(f) vəzifə müddətinin təmin edilməməsi;

(g) işçinin etinasız qiymətləndirilməsi;

(h) iş yerində cinsi və ya hər hansı xarakterli təqib (o cümlədən narahat iş mühitinin yaradılması iddiası);

(i) qanunsuz ayrıseçkilik (birbaşa, dolayı, qəsdən və ya qərəzsiz); və ya

(j) **Sığortalının** işçisi ilə əlaqədar uyğun işçi siyasəti və prosedurlarının təmin edilməməsi.

1.2 Bu Xüsusi Şərtlərin hər hansı müddəası Ümumi Şərtlərin hər hansı müddəası ilə uyğun olmazsa, bu Xüsusi Şərtlərin müddəaları üstünlük təşkil edir və rəhbər tutulur.

**2. SIĞORTA TƏMİNATI VƏ TƏZMİNAT**

2.1 Ödənilmiş sığorta haqqı və Sığorta Müqaviləsinin bütün şərtləri, məhdudiyyətləri, sığorta sazişləri, istisnalar və indossamentlərini nəzərə almaqla Sığortaçı Sığortalananı Sığortalananın qanunla müəyyən edilmiş və Ümumi Müddəaların 5-cı maddəsinə uyğun olaraq Sığorta Müddəti ərzində Sığortalanan tərəfindən Hadisə haqqında xəbərdarlıq edilmək şərtilə Hadisəni əhatə edən aşağıdakı itkilərinə görə ödəməli olduğu məbləği ödəyəcək:

(a) Şəxsi Zərər;

(b) Əmlaka Zərər;

(c) Reklam fəaliyyəti Öhdəliyi;

(d) Yanlış İşə Götürmə Təcrübəsi; və

(e) Məhsul Öhdəliyi

2.2 Bu Sığorta Müqaviləsinə əsasən sığorta hər hansı sazişə uyğun olaraq Sığortalanan tərəfindən boynuna götürülmüş həqiqi və təsdiq olunan öhdəliyi əhatə etmir və ona tətbiq edilmir:

(a) Sığortaçı tərəfindən yazılı halda qəbul edilməyincə yaxud belə üzərinə götürülmüş öhdəlik bu sazişin olmadığı təqdirdə bura əlavə edilmədiyi zaman Sığortalananın işə uyğun olmayan və təsadüfi olan davranışı; yaxud

(b) Üzərinə götürülmüş belə öhdəlik digər tərəfin bu sazişə qarşı olan öhdəliyidir, ancaq bu öhdəliyin olması üçün Sığortalanandan başqa digər şəxs də olmalıdır.

2.3 Sığorta Sığortalanan tərəfindən gözlənilən yaxud nəzərdə tutulmuş hər hansı həqiqi yaxud təsdiq edilmiş itki, zərər, xəsarət yaxud öhdəliyi istisna edir və:

(a) "gözlənilən yaxud nəzərdə tutulan" sözlərinin izahı Sığortalananın adından (Sığortalanan tərəfindən hər hansı Məhsulun məhdudiyyət olmadan Satışı daxil olmaqla) fəaliyyət göstərən (yaxud göstərə bilməyən) hər hansı şəxs tərəfindən fəaliyyət (yaxud fəaliyyətsizlik) zamanı müəyyənləşdiriləcək, Sığortalananın adından onun vəzifələrini çərçivəsində fəaliyyət göstərən (göstərə bilməyən) belə şəxsin məqsəd və gözləntiləri yalnız Sığortalananın adına yazılacaq; və

(b) Məhsul Öhdəliyinə gəldikdə isə, hər hansı Hadisənin baş verməsi haqqında Sığortalanan tərəfindən Sığortaçıya xəbərdarlıq verdiyi tarixdən sonra bu Məhsulların satışından meydana çıxan belə həqiqi yaxud təsdiqlənmiş Şəxsi Zərər və ya Əmlaka Zərər nəzərdə tutulacaq yaxud gözləniləcək. Hadisə haqqında xəbərdarlıq edildiyi tarixdən əvvəl Sığortalanan tərəfindən belə Məhsulların satışından yaranan həqiqi yaxud təsdiqlənmiş Şəxsi Zərər yaxud Əmlaka Zərərlə bağlı müddəadan və ya Hadisə haqqında xəbərdarlıq verilməsindən heç bir nəticə çıxarılmayacaq.

2.4 Sığorta Müqaviləsində əksinə göstərilməsinə baxmayaraq, bu Sığorta Müqaviləsi ilə aşağıdakıları təmin edir:

(a) Sığortalananın dünyanın istənilən yerində avtomobil yarışı/sürət yarışı komandalarına sponsorluq daxil olmaqla sponsorluq yaxud marketinq işlərindən meydana gələn öhdəlikləri daxildir. Bu sığortaya Shell Group əməliyyat şirkətinin müvafiq sponsorluğunun saxlanılması ilə yol verilir;

(b) 4-cü müddəaya əsasən, Sığorta Müddəti ərzində Sığortaçıya Hadisənin baş verməsi ilə əlaqədar xəbərdarlıq edildikdə tətbiq edilir, bu Hadisənin yaxud Şəxsi Zərər və ya Əmlaka Zərərin Başlama Tarixindən əvvəl tamamilə yaxud qismən baş verməsindən asılı olmayaraq tətbiq edilir; və

(c) Sığortalananın bütün dünyada apardığı əməliyyatlara və dünyanın istənilən yerində Sığortalananı cəlb edən iddialara tətbiq edilir.

2.4 Bu Sığorta Müqaviləsinə müvafiq olaraq hər hansı Hadisə ilə bağlı öhdəlik Sığortalananın bu Sığorta Müqaviləsinin əhatə etdiyi və Sığortalanana qarşı əsil məhkəmədən sonra yekun qərarla öhdəliyi müəyyənləşdirilməyənədək və Sığortalanan tərəfindən yazılı halda təsdiq edilməyənədək bura əlavə edilməyəcək və yalnız bu halda Sığortalanan bu öhdəlik üçün ödəniş həyata keçirəcək.

**3. ÇARPAZ MƏSULİYYƏT**

Sığortalananın üzərində məsuliyyət daşıdığı İşçisinin Şəxsi Zərər görməsi ucbatından iddia irəli sürüldüyü halda Sığorta Müqaviləsi hər bir Sığortalanana ayrıca sığorta müqavilələri verilmiş kimi belə iddiya qarşı Sığortalananları sığortasını həyata keçirəcək.

## 4. SIĞORTA TARİXİ

Sığorta Müqaviləsi Sığorta tarixindən əvvəl baş verən hər hansı Şəxsi Zərər, Əmlaka Zərər, Reklam Fəaliyyəti Öhdəliyi, Məhsul Sığortası və Yanlış İşə Götürmə Təcrübəsinə tətbiq olunmur.

# HİSSƏ B – İSTİSNALAR VƏ MƏHDUDİYYƏTLƏR

## 5. İŞÇİLƏR VƏ XİDMƏTÇİLƏRİN KOMPENSASİYASI

Sığorta Müqaviləsinə əsasən sığorta aşağıdakı həqiqi və təsdiqlənmiş öhdəliklərə daxil deyil və tətbiq edilmir:

(a) Belə xəsarətin baş verdiyi vaxt Sığortalananın işçisi olan hər hansı şəxsə qarşı Şəxsi Zərərə görə öhdəlik; yaxud

(b) Sığortaçı yaxud onun sığortalanan üçün öhdəlik hər hansı işçisinin müavinəti, işsizliyə görə müavinəti yaxud əlilliyə görə müavinət haqqında qanun yaxud buna bənzər qanuna əsasən müəyyənləşdirilir.

## 6. PAŞƏKAR XİDMƏTLƏR

Bu Sığorta Müqaviləsinə əsasən sığorta memarlıq və mühəndislik xidmətlərindən (burada digər istisnalara baxmayaraq) başqa hüquqi, mühasibatlıq, məlumat hazırlama, konsaltinq yaxud investisiyaya dair məsləhətçi xidmətləri kimi professional xidmətlərin göstərilməsi zamanı baş verən hər hansı fəaliyyət, səhv və ötürülmə ucbatından yaranan Əmlaka Zərər üçün həqiqi yaxud təsdiqlənmiş öhdəliyi əhatə etmir və tətbiq olunmur.

## 7. ƏMLAKA HIMAYYƏ, İSTIFADƏ VƏ NƏZARƏT OLUNMASI

Bu Sığorta Müqaviləsinə əsasən sığorta aşağıdakı Əmlaka Zərər üçün nəzərdə tutulmuş həqiqi və təsdiqlənmiş öhdəlikləri əhatə etmir və tətbiq edilmir:

(a) Sığortalananın sahib olduğu yaxud onun tərəfindən tutulmuş yaxud icarəyə götürülmüş əmlak;

(b) Sığortalanana borca verilmiş əmlak;

(c) Sığortalananın mühafizəsi və nəzarəti altında olan əmlak; yaxud

(d) Hər hansı Sığortalananın adından birbaşa yaxud dolayı yolla çalışan podratçılar yaxud subpodratçıların əməliyyatlar apardığı daşınmaz əmlak yaxud daşınmaz inventarın xüsusi bir hissəsi, bir şərtlə ki, bu Əmlaka Zərər belə əməliyyatlar nəticəsində meydana çıxsın;

Bir şərtlə ki, (i) 7-ci istisnanın (b), (c) və (d) müddəaları dəmiryollarının tikintisi və istismarı haqqında olan sazişə əsasən götürülmüş öhdəliyə tətbiq edilməsin; və (ii) bu 7-ci istisnanın (a) və (c) müddəaları hər hansı Sığortalananın əmlakına dəyən zərərə tətbiq edilməsin, burada Ümumi Şərtlərdə verilmiş “Sığortalanan” sözünün izahının verildiyi yarım müddəa (f) əsasında Sığortaçının mühafizəsi və nəzarəti altında olan daşınmaz əmlak nəzərdə tutulur.

## 8. SƏMƏRƏLİLİK VƏ İSTİFADƏNİN MÜMKÜNSÜZLÜYÜ

Bu Sığorta Müqaviləsinə əsasən sığorta həqiqi və təsdiqlənmiş öhdəlikləri əhatə etmir və tətbiq edilmir:

(a) İcra, keyfiyyət, uyğunluq, davamlılıq və ya onların funksiyalarını yerinə yetirmək yaxud məqsədlərinə xidmət etmək baxımından Sığortalanan tərəfindən hər hansı zəmanət yaxud göstərişə əməl etmək üçün Sığortalanan tərəfindən yaxud onun adından həyata keçirilmiş memarlıq və mühəndislik xidmətləri daxil olmaqla Məhsulların qüsurundan irəli gələn hallar

(b) Əgər bu Əmlaka Zərər bu Məhsullar və ya bununla bağlı təchiz edilmiş işlərin hər hansı hissəsinin yaxud material, hissələr və avadanlıqlardan irəli gəlirsə Sığortalanan tərəfindən yaxud onun adından həyata keçirilmiş memarlıq və mühəndislik xidmətləri daxil olmaqla hər hansı Məhsula olan Əmlaka Zərərlə bağlı hallar.

(c) Sığortalananın hər hansı Məhsulun yaxud işin (memarlıq və ya mühəndislik xidmətləri məhdudiyyətsiz daxil olmaqla) geri götürülməsi, nəzarəti, təmiri, qaytarılması, təxirə salınması, əvəz edilməsi yaxud yerləşdirilməsi zamanı yaranan xərcləri üçün yaxud əvvəlki istifadə mümkünsüzlüyü üçün bu istisna hal (c) Sığortalanandan

başqa bir tərəf tərəfindən hər hansı Məhsulun yaxud işin geri götürülməsi, nəzarəti, təmiri, qaytarılması, təxirə salınması, əvəz edilməsi yaxud yerləşdirilməsi zamanı yaranan xərclər; yaxud

(d) daşınmaz yaxud şəxsi əmlakın dəyərinin onun yalnız fiziki zədələnməsi yaxud məhv olması səviyyəsinədək düşməsi və bunun nəticəsində onun davam edən əməliyyatlar, fəaliyyətlər yaxud avadanlıqla yaxınlığı ilə bağlı və bu fəaliyyətlər, əməliyyatlar və avadanlıqların istifadə məhdudiyyəti yaxud insanlar tərəfindən zəbt edilməsi ilə bağlı yaranmış xərclər, lakin əgər daşınmaz və ya şəxsi əmlakın dəyərinin düşməsi burada sığortalanmış Hadisədən irəli gəlirsə bu istisna bura tətbiq edilməyəcək.

## 9. REKLAM FƏALIYYƏTI ILƏ BAĞLI MƏSULIYYƏT

Bu Sığorta Müqaviləsinə əsasən sığorta aşağıdakılar nəticəsində yaranan Reklam Fəaliyyəti Öhdəliyi üçün nəzərdə tutulmuş həqiqi və təsdiqlənmiş öhdəlikləri əhatə etmir və tətbiq edilmir:

(a) müqavilənin pozulması, ancaq bu yarım müddəa (a) nəzərdə tutulmuş pozulma yaxud təsdiq edilmiş pozulmaya əsaslanan reklam fəaliyyətinin icazəsiz mənimsəmə üçün öhdəliyi istisna etmir;

(b) qeydiyyatdan keçmiş ticarət markası, xidmət nişanı yaxud fabrik nişanının pozulması, ancaq bu yarım (b) müddəa adlar yaxud şüarlara tətbiq edilmir;

(c) reklam edilmiş keyfiyyət yaxud səmərəliliklə uyğunlaşmaq üçün malların, məhsulların və ya xidmətlərin müvəffəqiyyətsiz olması;

(d) malların, məhsulların yaxud xidmətlərin qiymətinin yanlış təsviri; yaxud

(e) Reklam fəaliyyəti ilə məşğul olan Sığortalanan tərəfindən digər Sığortalanan tərəf adından reklam fəaliyyəti.

## 10. ZƏHƏRLİ MADDƏLƏR

Bu Sığorta Müqaviləsinə əsasən sığorta aşağıdakıların istehsalı, paylanması, satışı, quraşdırılması, yerinin dəyişdirilməsi, istifadəsi, qəbul edilməsi yaxud inhalyasiyası səbəbindən meydana gələn həqiqi və təsdiqlənmiş Şəxsi Zərər, Əmlaka Zərər, Məhsul Öhdəliyi yaxud Reklam Fəaliyyəti Öhdəliyini əhatə etmir və tətbiq edilmir:

(a) Asbest yaxud hər hansı asbest tərkibli materiallar;

(b) Tütün yaxud hər hansı tütün məhsulları və ya tərkibində tütün olan hər hansı məhsul;

(c) 2,4,5 trixlofenoksiaktik (2,4,5-T”), yaxud 2,3,7,8-TCDD;

(d) Asbest formalı talk;

(e) Dietilstilbestrol ("DES");

(f) Hər hansı uşaqlıq daxili spiral ("UDS");

(g) Bədənə yerləşdirilən yaxud iynə vasitəsilə yeridilən hər hansı silikon tərkibli məhsul;

(h) vinil xlorid;

(i) silisum oksidi;

(j) mis xrom arsenat (MXA);

(k) çox xlorlaşdırılmış bifenil (ÇXB);

(l) Oddan qoruyucu maddələr;

(m) Su kəməri çəkilişi sənayesində istifadə edilən polibutilen boru xətlərinin istehsalında işlədilən polibutilen rezin;

(n) Metil tersiar butil efir (MTBE) yaxud;

(o) qurğuşun (PB).

## 11. HAVA GƏMİSİ

Sığorta Müqaviləsinə əsasən sığorta hər hansı təyyarə yaxud onun hər hansı hissəsinin dizaynı, istehsalı, hazırlanması, təchizatı, xidməti, istifadəsi yaxud əməliyyatından və ya hər hansı təyyarə qəzası yaxud oğurluğu hallarından irəli gələn həqiqi yaxud təsdiqlənmiş öhdəliyi əhatə etmir və tətbiq edilməyəcək.

**12. GƏMİ VƏ KİRƏÇİNİN ÖHDƏLİYİ**

12.1 Sığorta Müqaviləsinə əsasən sığorta hər hansı gəminin dizaynı, istehsalı, hazırlanması, təchizatı, satışı, şəxsi heyətlə təmin edilməsi, sahibkarlığı və ya əməliyyatı hallarından irəli gələn həqiqi yaxud təsdiqlənmiş öhdəliyi əhatə etmir və tətbiq edilməyəcək, lakin bu 12-ci istisna aşağıdakılara tətbiq edilmir:

(a) Sığortalananın sahib olduğu, icarəyə götürdüyü yaxud nəzarəti altında olan yerlərdə hər hansı Gəminin yüklənməsi yaxud yükünün boşaldılması;

(b) Təsadüfi Gəmidən İstifadə halları nəticəsində üçüncü tərəflərə dəyən Şəxsi Zərər yaxud Əmlaka Zərər görə öhdəlik (bir şərtlə ki, zərər Sığortalananın icarə götürdüyü Gəminin tam hamısını yaxud hər hansı hissəsini, komponentini yaxud avadanlığını və ya onun karqosunu əhatə etsin, bu halda o üçüncü tərəflərdə Əmlaka Zərər kimi qiymətləndirilməyəcək);

(c) Sığortalanan tərəfindən uzunluğu yetmiş beş (75) futdan az olan hər hansı Gəminin dizaynı, hazırlanması, təchizatı yaxud satışından meydana çıxan Şəxsi Zərər, Əmlaka Zərər, Məhsul Öhdəliyi və Reklam Fəaliyyətin Öhdəliyi üçün məsuliyyət; yaxud

(d) Sığortalanan tərəfindən hər hansı gəmi avadanlığı yaxud onun hər hansı hissəsinin dizaynı, hazırlanması, təchizatı yaxud satışından meydana çıxan Şəxsi Zərər, Əmlaka Zərər, Məhsul Öhdəliyi və Reklam Fəaliyyətin Öhdəliyi üçün məsuliyyət.

12.2 Bu 12-ci istisnada nəzərdə tutulanlar yaxud Ümumi Şərtlərdə "Gəmi" sözününün izahına baxmayaraq, Sığorta Müqaviləsi aşağıdakılar daxil olmaqla lakin bununla məhdudlaşmayan dəniz əməliyyatlarını əhatə edir:

(a) Dünyanın istənilən yerində kiməsə məxsus olan, məxsus olmayan, saxlanılan, işləyən, idarə edilən, istifadə edilən yaxud icarəyə verilən hər hansı Gəmi (müəyyən müddətli kirayə, yerindəcə kirayə, səyahət kirayəsi, yarım kirayə, boş qayıq və/yaxud kirayə və gəmi icarəsi daxil olmaqla);

(b) Yedəkləmə, gəmi idarəetməsi, gəmiqayırma/təmir, dartma əməliyyatları, terminal əməliyyatları, hər hansı Gəminin hazırlanması və/yaxud quraşdırılması.

**13. AVTOMOBİL MƏSULİYYƏTİ**

Sığorta ilə təmin olunan şəxsi heyət sığortası Sığortalanan üçün mümkün olan hər hansı avtomobil sığortası həddində həyata keçiriləcək. Belə sığortaya öhdəlik məhdudiyyəti Saxlamadan daha aşağı olmalıdır, bu halda sonuncu məbləğ bu sığortadan əvvəl Sığortalananın saxlaması kimi tətbiq ediləcək.

**14. İŞÇİ MÜAVİNƏTLƏRİ**

14.1 Sığorta Müqaviləsinə əsasən sığorta aşağıdakıları əhatə etmir və tətbiq edilməyəcək:

(a) Hər hansı Sığortalananın İşçisinin Müavinət Proqramlarının idarə edilməsində hər hansı Sığortalananın yaxud Sığortalananın qanuni məsuliyyət daşıdığı başqa bir şəxsin ehtiyatsız hərəkəti, səhvi yaxud buraxılışı ucbatından meydana çıxan öhdəlik; yaxud

(b) İşçinin Müavinət Proqramları yaxud Sığortası ilə bağlı itki, zədələnmə, xəsarət, öhdəlik, xərc və məsrəf.

14.2 14-cü istisna halda verildiyi kimi aşağıdakı terminlər aşağıdakı mənalarda işlənəcək:

(a) "İşçinin Müavinət Proqramları" qrup şəklində həyat sığortası, qrup şəklində qəza yaxud sağlamlıq sığortası, gəlirdə iştirak, təqaüd planları, işçinin səhmlərə abunəlik planları, işçinin kompensasiyası, işsizliyə görə müavinət, sosial sığorta müavinəti, əlilliyə görə müavinət və hər hansı buna oxşar işçi müavinətləri deməkdir.

(b) "inzibatçılıq" Sığortalanan tərəfindən səlahiyyət verildiyi zaman aşağıdakı hərəkətlərdən hər hansı biri deməkdir:

(i) İşçinin Müavinət Proqramlarına dair İşçilərə məsləhət vermək;

(ii) İşçinin Müavinət Proqramlarını izah etmək;

(iii) İşçinin Müavinət Proqramları ilə əlaqədar müvafiq qeydləri təhvil vermək; yaxud

(iv) İşçinin Müavinət Proqramlarına əsasən işçiləri siyahıya alma, məhdudlaşdırmaq yaxud ləğv etmək.

## 15. TƏKRARLANAN STRESS

Sığorta Müqaviləsinə əsasən sığorta Məhsulların davamlı istehsalı nəticəsində təkrarlanan stress, təkrarlanan gərginlik yaxud əzələlərin həddən artıq gərilməsindən meydana çıxan Şəxsi Zərəri aradan qaldırmaq, riski minimuma endirmək yaxud vəziyyəti yaxşılaşdırmaq üçün hər hansı mal, avadanlıq yaxud texnika və ya şəxsi yaxud daşınmaz əmlakı əldə etmək, hazırlamaq yaxud dəyişmək zamanı baş vermiş Şəxsi Zərər, Əmlaka Zərər yaxud digər xərcləri əhatə etmir və tətbiq edilməyəcək.

## 16. QİYMƏTLİ KAĞIZLAR VƏ ANTİ İNSAR

Sığorta Müqaviləsinə əsasən sığorta aşağıdakılarla bağlı hər hansı xalqın və ya federal dövlətin qanunverici, inzibati, hüquqi yaxud digər səlahiyyətli orqanı, yerli və ya digər hökumət və ya siyasi orqan və ya bölmənin hər hansı qanun, nizamnamə, fərman, qayda yaxud əsasnaməyə əsasən əhatə etmir və tətbiq edilməyəcək:

(a) Qiymətli kağızların alqı- satqısı, paylanması yaxud sərmayə məsləhəti və ya idarəetməsi ilə bağlı təkliflər;

(b) İnsar yaxud insarların qadağan edilməsi, ticarətə məhdudiyyət qoyulması, ədalətsiz rəqabət metodları yaxud ticarət ve kommersiyada aldadıcı əməllər;

(c) Dələduzluq yaxud vəzifənin pozulması;

(d) Cinayət cəzaları;

(e) İşin aparılması yaxud hər hansı qiymətləndirmə, cərimə və ya cəza ilə bağlı gəlir, aksiz, əmlak, əlavə dəyər və satış vergiləri daxil olmaqla hər hansı müvafiq hökumət vergisini yaxud tarif, lisenziya ödənişi yaxud hər hansı hökumət ödənişini ödəmə qabiliyyəti olmadıqda;

(f) Titullar və şüarlarla bağlı Reklam Fəaliyyətindən başqa digər bir məqsədlə müəllif hüququ, patent yaxud ticarət markasının pozulması;

(g) Sığortalanana məxsus olub olmamasından asılı olmayaraq daşınmaz əmlakda hər hansı qüsur yaxud zədə aşkarlanması;

(h) Daşınmaz əmlakın satışı yaxud satışı ilə bağlı təkliflərin aşkarlanması;

(i) İşçinin, məmurun yaxud direktorun vicdansızlığından irəli gələn və ya təsdiqlənmiş öhdəlik; yaxud

(j) Sığortalanan müəssisənin işçisinin, məmurunun yaxud direktorunun bu sığortalanan müəssisəyə qarşı olan öhdəliyi.

## 17. YANLIŞ İŞƏ GÖTÜRMƏ TƏCRÜBƏSİ

17.1 Bu Sığorta Müqaviləsi çərçivəsində aşağıdakılar əhatə olunmur:

(a) Sığortalananlar arasında olmayan şəxs və ya qurum tərəfindən yazılı müqaviləyə əsasən mövcud hesab edilən öhdəlik nəticəsində yaranmış məsuliyyət (bu cür yazılı müqavilə mövcud olmadığı halda mövcud olacaq öhdəlik);

(b) müvafiq hüquqi tələblər və plan sənədlərinə uyğun olaraq pensiya ödənişləri planı, sosial sığorta ödənişləri planı, sağlamlıq və ya digər oxşar planlar ilə əlaqədar hər hansı maliyyə öhdəliklərini yerinə yetirmək bacarıqsızlığı nəticəsində yaranmış Sığortalananın məsuliyyəti;

(c) Sığortalananın, zavod, fabrik, müəssisə və ya idarənin bağlanması və ya biznesin və ya əməliyyatların dayandırılması ilə əlaqədar, o cümlədən İşçilərin Uyğunlaşdırılması və Təlimatlandırılması Xəvərdarlığı Aktı (“29 U.S.C. 2101” və bütün növbəti düzəlişlər daxil olmaqla) və buna oxşar digər qanun və aktlar daxil olmaqla, hər hansı İşçiyə qarşı yaranmış əmək haqqı və kompensasiyaların ödənişi ilə əlaqədar hər hansı tələbdən irəli gələn məsuliyyəti;

(d) hər hansı İşçi ilə iş barəsində bütövlüklə hər hansı yazılı müqavilədən, işdən çıxartma öhdəliyi, “qızılı paraşüt”, “zəhərli həb” və ya İşçinin iş müddətinin başa çatması və ya Sığortalananın səlahiyyətlərinin dəyişməsi ilə əlaqədar digər kompensasiya ödənişi ilə əlaqədar yaranmış məsuliyyət; və ya

(e) iş zamanı İşçi tərəfindən qazanılmış, lakin Sığortalanan tərəfindən ödənilməmiş kompensasiya və mükafatlara görə məsuliyyət (o şərtlə ki, bu istisna sonradan ödəmə və əvvəlcədən ödənişə tətbiq olunmayacaq) .

17.2 Qanunsuz İşə götürmə Praktikası ilə əlaqədar yaranmış məsuliyyətə görə bu Sığorta Müqaviləsi çərçivəsində ödəniş vurulmuş Ziyana görə bir və ya bir neçə İşçi tərəfindən və ya adından Sığortalanana qarşı irəli sürülmüş şifahi və yazılı

tələbləri əhatə edəcək və hər hansı mülki məhkəmə işinin və ya arbitraj prosesinin yaranması təhlükəsini və aşağıdakı federal qanun, düzəliş və qaydalarının pozulması iddialarını özünə daxil edəcək:

(a) 1992-ci ilin Əlil Amerikalılar barədə Aktı (ADA);

(b) 1991-ci ilin Mülki Hüquqlar Aktı, 1967-ci ilin İşə götürmə zamanı Yaş Diskriminasiyası (ADEA), 1990-cu ilin Yaşlı İşçilərin Xeyrinin Mühafizəsi Aktı daxil olmaqla;

(c) 1964-cü ilin Mülki Hüquqlar Qanununun VII-ci Başlığına, 1983-cü ildə düzəliş edilmiş, 1978-ci ilin Hamiləlik Diskriminasiyası Aktı daxil olmaqla;

(d) 1866-cı ilin Mülki Hüquqlar Aktı, Bölmə 1981; və

(e) ABŞ Konstitusiyasının 5-ci və 14-cü Düzəlişləri;

*istər birba□a □ çi tərəfindən, sinif aksiyas□, □ çilərin Bərabər □mkanlar Komissiyas□ və ya i□ə götürmə məsələlərini nizamlayan hər hans□ digər dövlət və ya federal hökumət orqan□, və ya bir və ya bir neçə □ çinin ad□ndan ç□x□ □edən hər hans□ ba□qa □əxs və ya qurum tərəfindən irəli sürülsə belə.*

## 18. ELEKTROMAQNİT SAHƏLƏR

Sığorta Müqaviləsi çərçivəsində ödəniş aşağıdakı öhdəliklərə tətbiq olunmur və onları əhatə etmir:

(a) Aşağıdakılara görə yaranmış (və ya yaranması iddia edilən) hər hansı şəxsi zədələr:

(i) elektrik cərəyan xətləri, video monitor terminalları, elektrik mühərriklər (istər sənaye, kommersiya, istehlakçı və ya digər məhsul və qurğular ilə əlaqədar), elektrik yorğanlar, kompüterlər, məişət avadanlıqları və digər elektrik avadanlıqlar daxil olmaqla müxtəlif mənbələrdən yaranan az tezlikli elektromaqnit sahələr;

(ii) cib telefonları və digər simsiz rabitə vasitələri daxil olmaqla hər hansı mənbədən yaranmış yüksək tezlikli elektromaqnit sahələr; və ya

(ii) digər elektromaqnit sahələr;

və ya

(b) hər hansı mənbədən yaranan elektromaqnit sahələri üzündən Mülkiyyətə vurulmuş (və ya vurulduğu iddia edilən) ziyan.

## 19. ÇİRKLƏNMƏ

19.1 19.2-ci maddədə göstərilənlər istisna olmaqla, bu Sığorta Müqaviləsi çərçivəsində ödəniş aşağıdakıların faktiki və ya iddia edilən hallarına tətbiq olunmur:

(a) hər hansı zaman dünyanın hər hansı yerində Çirkləndiricilərin həqiqətən, iddia edildiyinə görə, Buraxılması səbəbindən baş vermiş Şəxsi Zədə, Mülkiyyətə vurulmuş ziyan, Məhsula görə Məsuliyyət və ya Reklam məsuliyyəti;

(b) Çirkləndiricilərin yoxlanılması, təmizlənməsi, yığışdırılması, zərərsizləşdirilməsi və ya neytrallaşdırılması və ya onların təsirinin qiymətləndirilməsini Sığortalanandan və ya başqalardan tələb edən qanun və ya digər tələbnamə və ya xahiş nəticəsində yaranmış itki, xərc və ya ödənişlər; və ya

(c) Çirkləndiricilərin yoxlanılması, təmizlənməsi, yığışdırılması, zərərsizləşdirilməsi və ya neytrallaşdırılması və ya onların təsirinin qiymətləndirilməsinə görə vurulmuş Ziyana görə hər hansı hökumət qurumunun irəli sürdüyü və ya onun adından irəli sürülən iddia nəticəsində yaranmış itki, xərc və ya ödənişlər.

19.2 19.3-cü maddəyə əsasən, 19.1 maddəsinin məhdudiyyəti aşağıdakılar üzündən yaranmış həqiqi və ya iddia edilən Şəxsi Xəsarət və ya Mülkiyyətə Ziyana tətbiq olunmur:

(a) Çirkləndiricilərin hər hansı Buraxılışı, o cümlədən Məhsul Məsuliyyəti sığortası çərçivəsində əhatə olunan, lakin yalnız əgər həmin Şəxsi Zədə və ya Mülkiyyətə Ziyan:

(i) Sığortalanana məxsus olan və ya onun tərəfindən icarəyə götürülmüş sahədən kənarda və fiziki məxsusluq başqalarına təhvil verildiyindən sonra baş verərsə;

(ii) Sığorta Müddəti ərzində nümayiş etdirilə bilən xüsusi tarixdə başlamışdırsa və həmin başlanğıc barədə Sığortalanan başlanğıc günündən sonrakı 20 (iyirmi) təqvim günü ərzində xəbər tutaraq Sığortaçıya

başlanğıc günündən sonrakı 80 (səksən) təqvim günü ərzində yazılı xəbərdarlıq etmişdirsə. Həmin xəbərdalıq istənilən halda edilməlidir, həm də Ümumi Şərtlərin tələblərinə uyğun olaraq; və

(ii) Məhsullar kiminsə tərəfindən nə vaxtsa diqqətsiz qalmamışdır, atılmamışdır, nəql etdirilməmişdir, tullanmamışdır, tərpədilməmişdir, saxlanılmamışdır və ya zibil kimi emal edilməmişdir;

və ya

(b) Çirkləndiricilərin hər hansı Buraxılışı, hansı ki aşağıdakı tələblərin hamısına cavab verir:

(i) qəflətən olmuş və Sığortalanan tərəfindən gözlənilirmir yaxud nəzərdə tutulmamışdır. Lakin, bu tələb aşağıdakı hallara tətbiq olunmur: əgər qəflətən baş vermiş və Sığortalanan tərəfindən gözlənilməyən yaxud nəzərdə tutulmamış hadisəyə görə baş verə biləcək üçüncü tərəfin Şəxsi Zədəsi və ya Mülkiyyətinə Ziyana səbəb ola biləcək və həqiqətən baş vermiş, iddia edilən və ya təhlükəsi yaranmış Çirkləndiricilərin Buraxılışı fövqəladə hadisəsinin qabağını almaq və ya mənfi təsirini azaltmaq məqsədilə Sığortalanan etdiyi cəhdlər nəticəsində Çirkləndiricilərin Buraxılışı baş verərsə;

(ii) əgər hadisə Sığorta Müddəti ərzində nümayiş etdirilə bilən xüsusi tarixdə başlamışdırsa və həmin başlanğıc barədə Sığortalanan başlanğıc günündən sonrakı 20 (iyirmi) təqvim günü ərzində xəbər tutaraq Sığortaçıya başlanğıc günündən sonrakı 80 (səksən) təqvim günü ərzində yazılı xəbərdarlıq etmişdirsə. Həmin xəbərdalıq istənilən halda edilməlidir, həm də Ümumi Şərtlərin tələblərinə uyğun olaraq; və

(ii) şərait imkan verdiyi kimi Çirkləndiricilərin Buraxılışını dayandırmaq istiqamətində Sığortalanan mümkün səylər göstərmişdirsə.

19.3 Bu Sığorta Müqaviləsi çərçivəsində ödəniş aşağıdakıları əhatə etmir və onlara tətbiq olunmur:

(a) Sığortalanan tərəfindən və ya onun adından digərlər tərəfindən tullantıların daşınması, saxlanılması, tullanması və ya emalı məqsədilə istifadə olunan hər hansı sahə və ya məkan;

(b) hər hansı cərimələr və ya cəzalar;

(c) turşu yağışları və ya turşuların tökülməsi;

(d) hökumət icazələrinin bilərəkdən pozulması və ya onlara bilərəkdən riayət edilməməsi ilə Çirkləndiricilərin Buraxılışı nəticəsində yaranmış hər hansı itki və ya xərclər, və ya Şəxsi Zədə, Mülkiyyətə Ziyan, Məhsula görə Məsuliyyət və ya Reklam Məsuliyyəti*;*

(e) Çirkləndiricilərin həqiqi Buraxılışı zamanı Sığortalananın sahib olduğu, icarə etdiyi və ya istifadə etdiyi məkanda Çirkləndiricilərin təmizlənməsi, yığışdırılması, saxlanılması, emalı, zərərsizləşdirilməsi və ya neytrallaşdırılması; və ya

(f) hər hansı qanuni tələbə, hökumət tələbi, əmri və ya xahişindən irəli gələn təmizlənmə nəticəsində itki və ya xərclər. Bu istisna aşağıdakı halda tətbiq olunmur: normal halda bu Sığorta Müqaviləsi tərəfindən əhatə olunan və həmçinin hər hansı qanuni tələbə, hökumət tələbi, əmri və ya xahişindən irəli gələn təmizləmə nəticəsində itki və ya xərclər üçüncü tərəfin olarsa.

**20. TERROR**

20.1 Bu Sığorta Müqaviləsi çərçivəsində ödəniş hər hansı Terror Aktından yaranmış və ya onunla hər hansı əlaqəsi olan (hətta eyni zamanda və ya hər hansı ardıcıllıqda baş verən digər hadisə və ya səbəb olsa belə), onunla birbaşa və ya vasitəli yol ilə əlaqədar baş vermiş itki, ziyan, məsuliyyət və ya xərcə tətbiq olunmur və onu əhatə etmir. Bu istisnaya həmçinin hər hansı Terrorizm Aktının qarşısının alınması, aradan qaldırılması və s. ilə əlaqədar olan hərəkət və tədbirlər ilə əlaqədar (birbaşa və ya dolayı yol ilə əlaqədar) və ya nəticəsində yaranmış itki, ziyan, məsuliyyət və ya xərc da daxildir.

20.2 Əgər Sığortalanın Sığortaçısı 20.1-ci maddənin şərtlərinə əsasən, hər hansı itki, ziyan, məsuliyyət və ya xərcin bu Sığorta Müqaviləsi tərəfindən əhatə edilmədiyini iddia edərsə, bunun əksini sübut etmək Sığortalanın borcudur.

**21. İŞƏGÖTÜRƏNİN MƏSULİYYƏTİ**

Gözlənilməyən ödənişlər bu Sığorta Müqaviləsi çərçivəsində yalnız Sığortalanana verilmiş, Sifarişçinin məcburi və ya könüllü məsuliyyət və ya kompensasiya planından əlavə olaraq tətbiq olunacaq. Bu cür plana tətbiq olunan məsuliyyət həddi

"Saxlanma"-dan az olarsa, sözügedən sonuncu məbləğ Sığortalananın saxlancı kimi istifadə olunacaq. Bu əlavə ödəniş ilə əlaqədar, 15-ci maddədəki istisnalar tətbiq olunmur və nəzərə alınmayacaq.

## 22. TIKINTI İLƏ BAĞLI MASULİYYƏT

Sığorta müqaviləsi ilə təmin olunan mümkün olan sığorta; Sığortalınnn üçün mövcud olan hər hansı tikinti ilə bağli masuliyyət sığortası üstəlik həyata keçiriləcək. Belə sığortaya aid məsuliyyət limiti Tutumdan aşağı olsa, bu halda sonuncu məbləğ  bu sığortadan əvvəl Sığortalının Tutumu kimi tətbiq ediləcək.

# XÜSUSİ ŞƏRTLƏR (2010)

## PEŞƏKAR SIĞORTA ZƏMANƏTİ

## HİSSƏ A – SIĞORTA TƏMİNATI

1. ANLAYIŞLAR VƏ İZAHLAR
2. SIĞORTA TƏMİNATI VƏ TƏZMİNAT
3. SIĞORTA TARİXLƏRİ

## HİSSƏ B – İSTİSNALAR VƏ MƏHDUDİYYƏTLƏR

4. İSNİSTA HALLAR

---

## BÖLMƏ A – SIĞORTA TƏMİNATI

### 1. ANLAYIŞLAR və TƏFSİR ETMƏ

1.1 Aşağıdakı terminlər aşağıdakı mənalar ilə işlənilir:

**A Sığorta Tarixi**

Müqavilədə göstərildiyi kimi.

**B Hadisə**

Sığortalananın işi zamanı digərlərə göstərilməli peşəkar xidmətlərin Sığortalanan tərəfindən görülməməsi və ya görülməsində yol verilmiş hər hansı səhv, etinasızlıq və ya nöqsan deməkdir.

Bütün əlaqədar hərəkətlər, səhvlər və ya nöqsanlar Sığortalananların sayından, irəli sürülmüş iddiaların, zədələnmiş şəxslərin sayından və mülkiyyətin miqdarından asılı olmayaraq bir Hadisə sayılacaq. Həmin bir Hadisənin bu cür hərəkət, səhv və ya nöqsanın baş verdiyi tarixdə baş verdiyi hesab ediləcək.

**C Mülkiyyətə vurulmuş Ziyan**

aşağıdakılar deməkdir:

(a) fiziki mülkiyyətə vurulmuş fiziki ziyan və ya dağıdıcı təsir, o cümlədən həmin zədədən sonra istifadə itkiləri;

(b) müəyyən fiziki mülkiyyətə fiziki ziyan və ya dağıdıcı təsir edildiyi səbəbindən digər fiziki ziyan vurulmamış və dağıdılmamış fiziki mülkiyyətdən istifadənin mümkünsüzlüyü; və

(c) fiziki mülkiyyətin dağıdılması və ya Şəxsi Zədələnmə təhlükəsi və ya həqiqətən baş verməsi nəticəsində evakuasiyadan sonra baş vermiş itkilər.

1.2 Bu Xüsusi Şərtlərin hər hansı şərti Ümumi Şərtlərin müddəalarına zidd olarsa, bu Xüsusi Şərtlərin müddəaları üstün tutulur.

### 2. SIĞORTA TƏMİNATI VƏ TƏZMİNAT

2.1 Ödənilmiş haqqları nəzərə alaraq və bu Sığorta Müqaviləsinin bütün şərt, məhdudiyyət, sığortalayıcı razılaşma və istisnalarını rəhbər tutaraq, Sığortaçı Sığortalananın hüquqi məsuliyyəti olan aşağıdakı məbləğləri ödəyir:

(a) Hadisə nəticəsində maliyyə itkiləri və ya Mülkiyyətə vurulmuş Ziyana görə Sığortalanana qarşı irəli sürülmüş iddia nəticəsi olaraq; və ya

(b) hər zaman 2.2 maddəsinə uyğun olaraq, Sığortalanan Sığortalanana məxsus bir müqavilənin qarşı tərəfini (və ya onunla əlaqəli olan təşkilatı) Hadisənin nəticəsində yaranmış hər hansı iddiaya qarşı məsuliyyətdən azad etməli olduğu hallarda;

o şərtlə ki, Hadisənin baş verdiyi barədə xəbər Ümumi Şərtlərin 5- ci maddəsinə uyğun olaraq Sığortalanan tərəfindən Sığorta müddəti ərzində ilk dəfə təqdim olunmuş olsun.

2.5 Hər hansı aşağıdakı kimi sazişlər çərçivəsində Sığortalanan tərəfindən boynuna götürülmüş həqiqi və ya iddia edilən məsuliyyət bu Sığorta Müqaviləsi tərəfindən əhatə olunmur:

(c) əgər saziş Sığortalanın adi işi sayılmır; Sığortalanan bunun əksini yazılı tərzdə qəbul etdiyi hallar istisna edilməklə və ya həmin öhdəlik bu cür sazişin olmadığı zaman meydana çıxdığı hallar istisna olmaqla; və ya

(d) o məsuliyyət ki, sözügedən saziş olmadığı təqdirdə, həmin sazişin digər tərəfi Sığortalanandan başqa digər bir şəxsi məsuliyyətə cəlb edərmiş.

2.6 Sığorta Müqaviləsi çərçivəsində ödəniş Sığortalanan tərəfindən gözlənilmiş və ya nəzərdə tutulmuş hər hansı həqiqi və ya iddia edilən itki, ziyan, zədə və ya məsuliyyəti istisna edir. “Gözlənilmiş və ya nəzərdə tutulmuş”-un nə olduğu Sığortalananın adından hərəkət edən hər hansı şəxsin hər hansı hərəkəti və ya hərəkətsizliyi əsasında təyin olunarkən, o vaxtkı vəziyyət və şərait nəzərə alınacaq. Bu halda şəxsin təvəkkülü və ya niyyətləri yalnız o zaman və o dərəcədə Sığortalanana tətbiq olunacaq kı, həmin şəxs Sığortalananın adından öz öhdəlikləri çərçivəsində hərəkət (və ya hərəkətsizlik) etmişdir.

2.4 O hallarda ki, Sığortalanana qarşı irəli sürülmüş hər hansı iddia, şikayət və ya hərəkət hədəsi Sığortaçının fikrincə mehribancasına həll edilməli olduğu təqdirdə, İddiaçı həmin iddia, şikayət və ya hərəkət hədəsinə qarşı mübarizə etməkdə

təkid edərsə, Sığortaçı Sığortalananın təkidi nəticəsində kompromisə razılaşmadığı tarixdən başlayaraq baş vermiş hər hansı itki və xərclərə görə məsuliyyət daşımır.

2.5 Bu Sığorta Müqaviləsi çərçivəsində hər hansı Hadisə ilə əlaqədar məsuliyyət nəzərə tutulmur, o hallar istisna olmaqla və o zamana qədər ki, Sığortalananın məsuliyyəti faktiki məhkəmə və ya Sığortalanan tərəfindən təsdiq edilmiş yazılı mübahisə həlli razılaşması yolu ilə təsdiq edilmişdir və Sığortalanan tərəfindən həmin məsuliyyət çərçivəsində öhdəliyi yerinə yetirilmişdir.

## 3. ƏHATƏ TARİXLƏRİ

Bu Sığorta Müqaviləsi Əhatə Tarixindən əvvəl baş vermiş hər hansı Hadisədən yaranmış hər hansı iddiaya tətbiq olunmur.

## BÖLMƏ B – İSTİSNA və MƏHDUDİYYƏTLƏR

## 4. İSTİSNALAR

Bu Sığorta Müqaviləsi çərçivəsində ödənişə aşağıdakılar daxil olunmur:

(c) Sığortaçının yazılı razılığı əvvəlcədən alınmadan, hər hansı birgə işin və ya birgə müəssisənin həyata keçirilməsi məqsədilə Sığortalananın daxil olduğu firma(lar) və ya digər assosiasiya adından və ya onun üçün etdiyi işə görə Sığortalanana qarşı irəli sürülmüş hər hansı iddia;

(d) Sığortalanan tərəfindən və ya onun işə cəlb etdiyi hər hansı şəxs(lər)in hər hansı Təyyarə, Gəmi, Avtomobil və ya digər nəqliyyat vasitəsindən və ya mexaniki mühərrikli mobil mexanizmlərdən istifadə etməsi nəticəsində bilavasitə və ya dolayı yol ilə yaranmış hər hansı iddia;

(e) istər Sifarişçi, istər digər şəxs tərəfindən Şəxsi zədəyə görə hər hansı iddia;

(f) hər hansı Sifarişçinin işçisi olaraq Sığortalananın üzərinə götürdüyü öhdəliyin pozulmasına görə hər hansı iddia;

(g) peşəsinin icrasında adətən tətbiq olunan bacarıq və ehtiyatdan artıq dərəcədə bacarıq tələb edən müqavilə çərçivəsində Sığortalananın üzərində götürdüyü xüsusi öhdəlikdən irəli gələn hər hansı iddia;

(h) Sığortalanan və ya onun İşçisi tərəfindən edilmiş vicdansızlıq, dələduzluq və ya cinayət hərəkəti nəticəsində bilavasitə və ya dolayı yol ilə yaranmış hər hansı iddia;

(i) memarlıq və ya mühəndislik xidmətlərinin göstərilməməsi və ya göstərilməsi zamanı baş vermiş hər hansı xəta, səhv və ya nöqsandan irəli gələn Mülkiyyətə Ziyan ilə bağlı hər hansı iddia;

(j) Sığortalananın ümumi sığortalanma Sığorta Müqaviləsi çərçivəsində əhatə olunan (və əhatə olunduğu dərəcədə) hər hansı iddia;

(k) Sığortalanan tərəfindən törədilmiş sızma, çirklənmə və ya zərərləşdirmə nəticəsində və ya onunla bağlı hər hansı iddialar;

(l) böhtan və ya şər atma iddiaları;

(m) Başlama Tarixindən əvvəl verilmiş hər hansı digər Sığorta Müqaviləsi və ya sığortalama şəhadətnaməsi çərçivəsində edilmiş xəbərdarlığın mövzusu olmuş hal, fakt və ya Hadisə nəticəsində yaranmış hər hansı iddia;

Başlama Tarixindən əvvəl başlamış hər hansı mülki və ya cinayət məhkəməsi, arbitraj və ya digər alternativ mübahisə həlli prosesi ilə əlaqəsi olan hər hansı hal, fakt və ya Hadisə.

## MƏSULİYYƏT SIĞORTASI" ÜZRƏ
## TARİF DƏRƏCƏLƏRİNİN HESABLANMASI

(sığorta məbləğinə %-lə)
sığorta obyekti, keçirilən tədbirlər, riskin dərəcəsindən asılı olaraq

Cədvəl 1

| Sığortalanan fəaliyyətin növü | Vurulan zərərə görə sığorta tarifləri Şəxsə | Əmlaka | Ətraf mühitə |
|---|---|---|---|
| İctimai kütləvi tədbirlərin təşkili və keçirilməsi | 0,30 | 1,25 | 1,4 |
| İdman tamaşa və mədəni maarif tədbirlərin təşkili və keçirilməsi | 0,20 | 1,50 | 1,5 |
| Reklam və bayram tərtibatı ilə əlaqədar işlərin təşkili və keçirilməsi | 0,80 | 0,75 | 1,2 |
| Binaların, tikintilərin, ərazilərin, torpaq sahələrin saxlanılması və istismarı | 0,80 | 1,50 | 1,50 |
| Keramika, farfor (çini), sement, kərpic və oxşar istehsalat | 0,20 | 1,50 | 1,50 |
| Tikinti, quraşdırma və təmir işlərin aparılması | 0,90 | 2,25 | 1,2 |
| Meşə və kənd təsərrüfat istehsalatı | 0,30 | 1,25 | 0,75 |
| Sahibkarın (işə götürənin) məsuliyyəti | 0,65 | 0,50 | |
| Heyvanların saxlanılması | 0,90 | 1,50 | 1,0 |
| Digər tədbirlər və istehsalatlar | 0,25 | 2,0 | 1,7 |

Cədvəl 1-ə aid olan qeydlər:

1. Sığortaçının məsuliyyət həcmini, sığorta örtüyünün ərazisini və riskin dərəcəsinin müəyyən edilməsində əhəmiyyət daşıyan digər halları nəzərə alaraq, Sığortaçı müəyyən sığorta müqaviləsi bağladıqda təyin edilmiş tariflərə artırma və azaltma əmsallarını tətbiq etmək hüququna malikdir.
2. Bir ildən az müddətə müqavilə bağlandıqda sığorta mükafatı ümumi illik sığorta mükafatının cədvəl 2-də və yaxud cədvəl 4-də göstərilən əmsalı hasili kimi hesablanır.

Cədvəl 2

| Müqavilənin qüvvədə olma müddəti (aylarla) | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İllik mükafatdan faiz | 20 | 30 | 40 | 50 | 60 | 70 | 75 | 80 | 85 | 90 | 95 |

3. Sığorta müqaviləsinin qüvvədə olma müddəti zamanı tərəflərin razılığı ilə Sığortaçının məsuliyyət limiti artırılarsa, əlavə sığorta haqqı aşağıda göstərilən düstur ilə hesablanır:

ÑHəlav = (ÑM2 - ÑM1) *Ò/12, harada:

ÑM1, ÑM2 –əvvəlki və sonuncu məsuliyyət limitinə müvafiq olaraq illik sığorta mükafatı

Ò – sığorta müqaviləsinin başa çatmasına qalan tam ayların miqdarı .

4. Sığorta müqaviləsi vaxtından əvvəl ləğv edildikdə qaytarılan sığorta haqqının hissəsi miqdarı aşağıda göstərilən düstur ilə hesablanır:

ÑHq = ÑM1 * (1 - Ê),

burada ÑHq –illik sığorta mükafatıdır;

Ê – sığorta mükafatının istifadə etməsi əmsalı (cədvəl 3 ilə hesablanır)

Cədvəl 3

| Müqavilənin qüvvədə olma müddəti (aylarla) | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ê əmsalı | 0,2 | 0,35 | 0,5 | 0,6 | 0,65 | 0,7 | 0,75 | 0,8 | 0,85 | 0,9 | 0,95 | 1,0 |

Cədvəl 1 ilə əhatə olunmayan və yaxud riskin baş vermə ehtimalına təsir edən amillərin bu cədvəldə nəzərdə tutulanlardan fərqli olduğu hallarda tarifin hesablanması aşağıdakı qaydada aparılır:

a) Konkret risk üzrə əldə olan statistika əsasında müəyyən edilmiş sığorta hadisəsinin baş vermə ehtimalı (q): 0,02;

b) Bir müqavilə üzrə orta sığorta məbləği ($S_{o.c.m}$): 80 mln. manat;

c) Bir müqavilə üzrə orta sığorta ödənişi ($S_{o.c.ö}$): 40 mln. manat;

d) Bağlanılacaq müqavilələrin sayı (n): 40.

Tarif dərəcəsini B, netto-dərəcəni A, netto-dərəcənin əsas hissəsini $K_1$, risk üstəliyini isə $K_2$ ilə işarə edək. Onda

$$K_1 = \frac{100qS_{î.ñ.þ}}{S_{î.ñ.ì}} = \frac{100 \cdot 0,02 \cdot 40000000}{80000000} = 1 \text{ manat.}$$

Risk üstəliyini hesablamaq üçün 1,3 əmsalından istifadə edəcəyik. Bu o deməkdir ki, yığılmış sığorta mükafatları 0,9 ehtimalı ilə sığorta ödənişlərinin verilməsinə kifayət edir. Beləliklə,

$$K_2 = 1,3 \cdot 1,2K_1 \cdot \sqrt{\frac{1-q}{nq}} = 1,2 \cdot 1,3 \cdot 1 \cdot \sqrt{\frac{1-0,02}{40 \cdot 0,02}} = 1,7 \text{ manat}$$

$$A = K_1 + K_2 = 1 + 1,7 = 2,7 \text{ manat}$$

Tarifin strukturu: netto-dərəcə - 75%, yüklənmə - 25%.

$$B = \frac{100À}{100-25} = \frac{100 \cdot 2,7}{75} = 3,6 \text{ manat.}$$

Sığorta riskinin dərəcəsinə təsir edən amillərdən, azadolmadan, əmlakın növündən və s. şərtlərdən asılı olaraq yuxarıda göstərilən tarif dərəcəsinə (0,01 - 0,9) azaldıcı və (1,01 - 10) artırıcı əmsallar tətbiq edilə bilər.

Sığorta müqaviləsi bir ildən az müddətə bağlandıqda və ya vaxtından qabaq qüvvədən düşdükdə haqq aşağıdakı cədvəl üzrə hesablanır:

Vaxtından qabaq xitam verilən və ya bir ildən az müddətli müqavilələr üzrə haqqın hesablanması cədvəli

| Sığorta müqaviləsinin qüvvədə olma müddəti (gün) | İllik haqqın faizi | Sığorta müqaviləsinin qüvvədə olma müddəti (gün) | İllik haqqın faizi |
|---|---|---|---|
| 1 | ..............5 | 154-156 | ...........53 |
| 2 | ..............6 | 157-160 | ...........54 |
| 3-4 | ..............7 | 161-164 | ...........55 |
| 5-6 | ..............8 | 165-167 | ...........56 |
| 7-8 | ..............9 | 168-171 | ...........57 |
| 9-10 | ...........10 | 172-175 | ...........58 |
| 11-12 | ...........11 | 176-178 | ...........59 |
| 13-14 | ...........12 | 179-182 | ...........60 |
| 15-16 | ...........13 | 183-187 | ...........61 |
| 17-18 | ...........14 | 188-191 | ...........62 |
| 19-20 | ...........15 | 192-196 | ...........63 |
| 21-22 | ...........16 | 197-200 | ...........64 |
| 23-25 | ...........17 | 201-205 | ...........65 |
| 26-29 | ...........18 | 206-209 | ...........66 |
| 30-32 | ...........19 | 210-214 | ...........67 |
| 33-36 | ...........20 | 215-218 | ...........68 |
| 37-40 | ...........21 | 219-223 | ...........69 |
| 41-43 | ...........22 | 224-228 | ...........70 |
| 44-47 | ...........23 | 229-232 | ...........71 |
| 48-51 | ...........24 | 233-237 | ...........72 |
| 52-54 | ...........25 | 238-241 | ...........73 |
| 55-58 | ...........26 | 242-246 | ...........74 |
| 59-62 | ...........27 | 247-250 | ...........75 |
| 63-65 | ...........28 | 251-255 | ...........76 |
| 66-69 | ...........29 | 256-260 | ...........77 |
| 70-73 | ...........30 | 261-264 | ...........78 |
| 74-76 | ...........31 | 265-269 | ...........79 |
| 77-80 | ...........32 | 270-273 | ...........80 |
| 81-83 | ...........33 | 274-278 | ...........81 |
| 84-87 | ...........34 | 279-282 | ...........82 |
| 88-91 | ...........35 | 283-287 | ...........83 |
| 92-94 | ...........36 | 288-291 | ...........84 |
| 95-98 | ...........37 | 292-296 | ...........85 |
| 99-102 | ...........38 | 297-301 | ...........86 |
| 103-105 | ...........39 | 302-305 | ...........87 |
| 106-109 | ...........40 | 306-310 | ...........88 |
| 110-113 | ...........41 | 311-314 | ...........89 |
| 114-116 | ...........42 | 315-319 | ...........90 |
| 117-120 | ...........43 | 320-323 | ...........91 |
| 121-124 | ...........44 | 324-328 | ...........92 |
| 125-127 | ...........45 | 329-332 | ...........93 |
| 128-131 | ...........46 | 333-337 | ...........94 |
| 132-135 | ...........47 | 338-342 | ...........95 |
| 136-138 | ...........48 | 343-346 | ...........96 |
| 139-142 | ...........49 | 347-351 | ...........97 |
| 143-145 | ...........50 | 352-355 | ...........98 |
| 147-149 | ...........51 | 356-360 | ...........99 |
| 150-153 | ...........52 | 361-365 | ...........100 |

AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİ
DÖVLƏT SIĞORTA NƏZARƏTİ XİDMƏTİ
QAYDALAR ÜÇÜN